№ 7 (950) 16-22 fevral 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Dəmir yolu strukturunun təşkili nəqliyyatın ahəngdar inkişafını təmin edir



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşlar. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına və xanımına burada aparılan işlər barədə məlumat vermiş, bildirmişdir ki, 1956-cı ildə inşa edilən bu binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Foyedə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasi fəaliyyətləri, həmçinin ölkəmizdə dəmir yolunun inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb. Ümumilikdə, Azərbaycanda dəmir yolunun inkişafı ulu öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zamanı əhatə edir. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanda dəmir yolları müasir dövrün tələblərinə uyğunlaşdırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə, köklü islahatlara və davamlı inkişafa nail olunub.

Binada ən müasir işıqlandırma sistemi qurulub. Dəmir yolunun fasiləsiz iş rejimini nəzərə alaraq, binanın həyətyanı ərazisində iki transformator və generator quraşdırılıb, su anbarları inşa edilib. Burada, eyni zamanda, beynəlxalq standartlara cavab verən yanğın təhlükəsizliyi və mühəndis kommunikasiya sistemləri tam şəkildə yenilənib. Ətraf ərazilərdə əsaslı abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.

* * * * *

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb. Mərkəzdən müşahidə kameraları vasitəsilə vağzal ərazisinə nəzarət olunur.

Vağzal binasının ikinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. "ASAN kommunal" mərkəzlərinin yaradılması Azərbaycan Prezidentinin ötən il imzaladığı Fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada 3 qurum - "Azərişıq" və "Azərsu" ASC-lər, həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Mərkəzdə "Azərişıq" və "Azərsu" ASC-lərin hər biri üçün 10, "Azəriqaz" İstehsalat Birliyi üçün isə 9 xidmət pəncərəsi yaradılıb. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə, 71 nəfər işlə təmin olunub. Mərkəzdə könüllülər otağı, konfrans zalı, uşaq əyləncə sahəsi yaradılıb. Onu da deyək ki, bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı "ASAN kommunal" mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb. Bakı Dəmir Yolu Vağzalının belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial layihələrin uğurla davam etməsini aydın göstərir. Bu layihənin icra olunması həm də Azərbaycan dəmir yollarının inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.




# Müasir standartlara uyğun yeni xidmət mərkəzi açıldı

Fevralın 10-da Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsaslı şəkildə yenidən qurulan 1 saylı poçt filialının yeni xidmət mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına yeni xidmət mərkəzi barədə məlumat vermişdir. Bildirilmişdir ki, nazirliyin qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlər poçt və telekommunikasiya binalarında yaradılan yeni xidmət mərkəzlərində təqdim ediləcək. "Şəbəkə" adlanan ilk xidmət mərkəzi Üzeyir Hacıbəyli 36 ünvanında yerləşən 1 saylı poçt filialında istifadəyə verilib.

Dövlət başçısının diqqətinə çatdırılmışdır ki, "Şəbəkə" mərkəzlərində istifadə olunan bütün proqram təminatı yerli mütəxəssislər tərəfindən hazırlanıb və müasir standartlara uyğundur. "Şəbəkə" xidmət mərkəzlərində bütün növ telekommunikasiya və poçt, bank və maliyyə xidmətlərinin təşkili də nəzərdə tutulub. Xidmətlərin vahid məkanda cəmlənməsi vətəndaşların vaxt itkisini aradan qaldırmağa və nağdsız ödənişlərə imkan yaradıb.

Dövlətimizin başçısına və xanımına mərkəzdəki e-GovPay ödəmə sistemi, mərkəzdəki "elektron imza" və "elektron hökumət" portalı ilə bağlı həyata keçirilən yeniliklər barədə də ətraflı məlumat verilmişdir.




# Qida Təhlükəsizliyi Komissiyasının iclasında Prezidentin Fərmanından irəli gələn vəzifələr müzakirə olunub

Fevralın 14-də Nazirlər Kabinetində Qida Təhlükəsizliyi Komissiyasının ilk iclası keçirilib. İclasda Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanından irəli gələn məsələlər müzakirə olunub.

Qida təhlükəsizliyinin müasir dünyanın aktual problemlərindən birinə çevrildiyini deyən Əli Əhmədov qeyd edib ki, bəşəriyyətin, insanların sağlamlığı bilavasitə bu problemin uğurlu həllindən asılıdır. Buna görə də bütün dünya, beynəlxalq təşkilatlar, mötəbər beynəlxalq qurumlar, ayrı-ayrı dövlətlər qida təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar böyük proqramlar reallaşdırırlar. Azərbaycanda bu istiqamətdə Prezidentin ayrı-ayrı sərəncamları və göstərişləri əsasında bir sıra mühüm işlər həyata keçirilib. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli Fərmanı bu baxımdan müstəsna əhəmiyyətə malikdir. Fərmana əsasən, ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Qida Təhlükəsizliyi Agentliyi yaradılacaq. 2018-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq Agentlik qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini), risklərin təhlilini, gigiyenik sertifikatlaşdırma işinin aparılmasını, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsini, habelə qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin edəcək.

# Tarif (qiymət) Şurasının dərman vasitələri barədə məlumatı

Bəzi KİV-də ölkədə dərman vasitələri bazarında "qıtlıq" müşahidə edildiyi, qiymətlərin "günbəgün bahalaşdığı" barədə periodik şəkildə məlumatlar dərc olunur. Məsələ ilə əlaqədar olaraq aşağıdakıları bildiririk:

Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlət qeydiyyatından keçmiş dərman vasitələri aktiv və passiv dərman vasitələri olmaqla iki qrupa ayrılır. Faktiki satışda olan dərman vasitəsi aktiv, satışda olmayanlar isə passiv dərman vasitəsi hesab olunur. Dərman vasitəsi qeydiyyatda olduğu müddət ərzində (qanunvericiliyə əsasən qeydiyyat vəsiqəsi hər dəfə növbəti 5 il üçün verilir) idxal, paylanma, marketinq və s. kimi müxtəlif obyektiv səbəblərdən dəfələrlə gah aktiv, gah da passiv vəziyyətdə olur. Ölkəmizdə gün ərzində satılan dərman vasitələrinin sayı yüz minlərlə ifadə olunur və hansısa aptekdə, hansısa ticarət adında dərman vasitəsinin olmaması "qıtlıq" demək deyildir. Passiv olan dərman vasitələrinin də eynitərkibli, eyni xəstəliklərin müalicəsi baxımından müxtəlif alternativləri mövcuddur.

Dərman vasitələrinin qiymətləri aydın və şəffaf mexanizmlə tənzimlənir. Mövcud mexanizmdə idxalçıların hansısa dərman vasitəsini süni şəkildə passiv vəziyyətə gətirməklə qiymət artımı üçün "təzyiq edərək" nəticə almaları mümkün deyil və bu barədə məlumatların heç bir əsası yoxdur.

Əksər hallarda bioloji fəallığa malik qida əlavələri bəzi KİV-də dərman vasitəsi kimi təqdim olunur, onların müxtəlif apteklərdə bir-birindən kəskin fərqlənən və baha qiymətlərlə satıldığı bildirilir. Bir daha vurğulayırıq ki, bioloji fəallığa malik qida əlavələri dərman vasitəsi deyildir və qiymətləri digər ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlət tərəfindən tənzimlənmir.

Müxtəlif ölkələrin minə yaxın müəssisəsinin istehsalı olan dərman vasitələri ölkəmizdə qeydiyyatdan keçib və dərman vasitələrinin idxalı 50-dən çox fəal idxalçı tərəfindən həyata keçirilir. Dərman vasitələrinin qiymətlərinin sərbəst buraxılacağı təqdirdə daha optimal səviyyədə olacağına dair "təkliflər"lə bağlı bir daha qeyd edirik ki, dərman bazarı öz xüsusiyyətlərinə görə digər bazarlardan fərqlənir və bu sahədə qiymətlərin sərbəst buraxılması nəinki qiymətlərin aşağı düşməsini təmin etmir, əksinə qiymətlərin qalxmasını stimullaşdırır.



# Qablaşdırma məhsulları istehsal edən 20-yə yaxın şirkət məhsullarını sərgiləyib



Fevralın 14-də İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, ölkəmizdə qablaşdırma sahəsində fəaliyyət göstərən sahibkarların iştirakı ilə "İstehsal və emal sahələrinin inkişafında qablaşdırmanın rolu" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ölkədə qablaşdırma məhsulları istehsal edən 20-yə yaxın şirkətin məhsullarından ibarət sərgi ilə tanış olublar.

Tədbirdə iştirak edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər, aparılan islahatlar barədə məlumat verib.

Dövlət başçısı tərəfindən sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayının azaldılması, sahibkarlara investisiya təşviqi sənədinin verilməsi, yerli istehsalın dəstəklənməsi və ixracın təşviqi sahəsində mühüm qərarlar qəbul edilib.

Respublikada qablaşdırmanın təşkili, bu sahədə istehsalın artırılması və dövlət dəstəyi tədbirləri barədə məlumat verən nazir Şahin Mustafayev qeyd edib ki, qablaşdırma sahəsində müəyyən uğurlarımız olsa da, bu sahənin genişləndirilməsi vacibdir. Qablaşdırma iqtisadiyyatın digər sahələri ilə sıx əlaqədə fəaliyyət göstərir və qablaşdırma sənayesinin məhsullarından digər sektorlarda geniş istifadə olunur.

Hazırda plastik kütlədən tara materialları üzrə özünütəminat səviyyəsi 63 faiz, kağız və kartondan tara materialları üzrə 57 faiz, butulka və digər şüşə taralar üzrə 33 faizdir. Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafı, istehsal və emal sahələrinin genişlənməsi, ixrac imkanlarının artması qablaşdırma sənayesinin genişləndirilməsini zəruri edir.

Nazir diqqətə çatdırıb ki, qablaşdırma sahəsində fəaliyyət göstərən və ya yeni fəaliyyətə başlamaq istəyən sahibkarlar Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərindən, həmçinin investisiya təşviqi və digər dəstək mexanizmlərindən yararlana bilərlər. Tədbirin əsas məqsədi də qablaşdırma sahəsinin inkişafına dəstək verilməsi, yerli məhsulların tanıdılması və qablaşdırma sahəsində fəaliyyət göstərən sahibkarlarla istehsalçıların əlaqələrinin genişləndirilməsidir. Tədbir çərçivəsində təşkil edilən sərgidə nümayiş olunan müasir qablaşdırma məhsulları sahibkarlar arasında əməkdaşlığı gücləndirməklə yanaşı, istehsal olunmuş məhsulların ixrac imkanlarının genişlənməsinə öz töhfəsini verəcək.

Nazir Şahin Mustafayev həmçinin ixracın inkişafına digər dəstək mexanizmləri barədə məlumat verib, Belarusda yaradılmaqda olan Azərbaycan Ticarət Evinin layihə görüntüləri nümayiş olunub.

Qeyd olunub ki, Belarusdakı Ticarət Evi yaxın 2 ay müddətində fəaliyyətə başlayacaq. Belə ticarət evlərinin Rusiya və Ukraynada da yaradılması nəzərdə tutulur. Bununla yanaşı, artıq Azərbaycanın Rusiyada ticarət nümayəndəsi təyin olunub.

Artıq Çin, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Pakistan və Əfqanıstana Azərbaycanın ticarət missiyaları təşkil olunub. Növbəti belə missiya Qətərə təşkil ediləcək. Bundan başqa, Azərbaycan mənşəli qeyri-neft məhsullarını ixrac edən sahibkarlara 600 min manata yaxın vəsait geri ödənilib.

Tədbirdə qablaşdırma sahəsində fəaliyyət göstərən müəssisələrin rəhbərləri tərəfindən təqdimatlar keçirilib.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# REGİONLARIMIZ GÜCLÜ YÜKSƏLİŞ YOLUNA ÇIXACAQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev **«Regionların sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illər Dövlət proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransında demişdir: «Bütün obyektiv çətinliklərə baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir və bütün əsas vəzifələr icra olunmuşdur. İqtisadiyyatın əsas göstəriciləri müsbətdir. Kənd təsərrüfatı 2,6 faiz, qeyri-neft sənayesi 5 faiz artmışdır. Keçən il yüz mindən çox daimi iş yeri yaradılmışdır. Bu proses 2004-cü ildən bu günə qədər davam edir».**

Statistik rəqəmlərə diqqət yetirsək görərik ki, ötən il regionlarda 147 sənaye müəssisəsi açılıb, bir sıra yeni obyektlərin inşasına başlanılıb. Son bir neçə il ərzində 20 rayonda 44 min hektar ərazidə 22 sahibkarlıq təsərrüfatı tərəfindən müasir suvarma və innovativ texnologiyalara əsaslanan 32 iri fermer təsərrüfatı yaradılıb. Yaradılan müəssisələr regionların sosial-iqtisadi tərəqqisinə geniş yol açmaqla, ərzaq və sənaye məhsullarına olan tələbatın ödənilməsində, ölkənin ixrac potensialının artırılmasında, dünya bazarlarına çıxışın təmin edilməsində müstəsna əhəmiyyət kəsb edib.

Son illər ərzində bölgələrdə həyata keçirilən tədbirlərin fonunda nümunəvi təsərrüfatlar formalaşıb. Öncə 2014-cü ildə yaradılan Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində görülən işləri qeyd etmək istərdik. Belə ki, burada yaradılan biznes inkubator regionun iqtisadi inkişafına təkan vermiş, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsində, gənclərin biznes imkanlarının artırılmasında, məşğulluğun təmin olunmasında, əlverişli biznes mühitinin formalaşmasında mühüm rol oynamışdır. Burada gənclər kənd təsərrüfatı, turizm, İKT, xalçaçılıq, dizayn, emal, xidmət və s. sahələr üzrə treninqlər keçir və sahibkar kimi formalaşırlar. Hazırda digər iqtisadi rayonlarda da analoji addımlar atılmaqdadır.

**Cənab prezidentin qarşıya qoyduğu vəzifələr istiqamətində, demək olar ki, hər bir bölgədə zəruri tədbirlər görülür. Hətta düşmənlə təmas nöqtələrində yerləşən yaşayış məntəqələrində də iqtisadi fəallıq artır, işgüzarlıq yüksəlir.** Xüsusilə, aprel döyüşlərindən sonra hər yerdə coşqu və qələbəlik yaşanır. Torpaqlarının böyük hissəsi düşmən işğalı altında olan Ağdam rayonunda genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Quzanlı qəsəbəsində avtovağzal, mini futbol meydançası, çay evi, yanacaqdoldurma məntəqəsi, Təzəkənd kəndində poçt şöbəsi istifadəyə verilib. Bundan başqa, Evoğlu kəndində 100 yerlik uşaq bağçası, Çəmənli kəndində kitabxana, Əfətli və Əhmədağalı kəndlərində xatirə abidə kompleksləri tikilib istifadəyə verilib. Çəmənli kənd uşaq bağçasının, Üçoğlan kənd xəstəxanasının əsaslı təmiri başa çatdırılıb. Heydər Əliyev prospektində xiyaban salınıb.Ağdam rayonu ilə həmsərhəd olan Bərdə rayonu ərazisində, konkret olaraq Təhlə kəndində 2013-cü ildə 195 həyət evindən ibarət qəsəbə, 2014-cü ildə Bərdə şəhəri yaxınlığında, Həsənqaya bələdiyyəsi ərazisində 866 yerlik 15 beşmərtəbəli binalardan ibarət qaçqın şəhərciyi, 2015-ci ildə isə 14 ədəd yeddimərtəbəli 588 yerlik mükəmməl infrastruktura malik olan qəsəbə cənab prezident İlham Əliyevin iştirakı ilə məcburi köçkünlərin ixtiyarına verilib. Bərdə rayonunun kənd təsərrüfatında artım özünü göstərmiş, pambıqçılıq və baramaçılıq, eyni zamanda, tərəvəzçilik və heyvandarlığın sürətli templərlə inkişaf proqramının icrasına başlanılmışdır.

**2016-cı il Qobustan rayonu üçün də uğurlu il olub. Rayonun 83959 hektar ərazisi əkinə yararlıdır ki, bunun da 21649 hektarına taxıl əkilmiş və 53,5 min ton məhsul tədarük edilmişdir. Dəmyə torpaqlar olduğuna görə, məhsuldarlıq hektara 22,3 sentner təşkil etmişdir. Bu da əvvəlki illərdən 10 sentner çoxdur. Əkin sahələrinin çox kiçik hissələrə bölünməsi, başqa sözlə, ara məsafələrdə qalan torpaqların ziyanvericilərdən və xəstəliklərdən qorunması mümkün olmur.** Fermerlər kiçik pay torpağı sahiblərinin iri kooperativlərdə birləşdirilməsi təşəbbüsü ilə çıxış etmişlər. Çünki rayonda sayı 7 mindən artıq olan torpaq mülkiyyətçilərinin heç də hamısının əkin işlərinin yüksək aqrotexniki qaydalara uyğun şəkildə aparmağa gücləri və imkanları çatmır. Qobustan, həmçinin respublikamızın böyük heyvandarlıq rayonlarından biridir. Son illər iribuynuzlu mal-qaranın sayı 3 faiz artaraq 30 min 342 başa çatmışdır. Ötən il rayonda qoyun və keçilərin sayı 2 faiz artaraq 190375 başa, quşların sayı isə 1 faiz artaraq 87062-yə çatmışdır.

Ölkə başçısı pambıqçılığı prioritet elan etdikdən sonra, demək olar ki, bütün pambıqçılıq rayonlarında bu sahəyə maraq birə-beş qat artmışdır. Saatlı rayonu da bu sırada xüsusi yer tutur. Rayonda fəaliyyət göstərən «Şamo» MMC uzun illərdir ki, işini dayandırmışdı. Keçən il görülən tədbirlər nəticəsində müəssisə yenidən fəaliyyətə başladı və ilin pambıq əkinində birincilər sırasına çıxdı. Pambıqçılıq çətin sahədir, lakin bununla belə gəlirli sahədir, əhalinin, necə deyərlər, görüb-götürdüyü fəaliyyət növüdür. Bunu nəzərə alaraq, dövlət başçısı pambıqçılara hər cür qayğı və dəstəyini əsirgəmir. «Şamo» MMC öz növbəsində bu şərəfli işin daşıyıcılarına əlindən gələn köməkliyi edir. Pambıqçılara ilkin olaraq 500 min manatdan artıq avans verilib, toxum və gübrə paylanılıb, texniki təchizat sarıdan problem yaşanmasına imkan verilməyib. «Şamo» MMC-nin müasir avadanlıqlarla təchiz olunmuş zavodu da vardır. Bu il 3 min hektardan artıq sahədə pambıq əkini nəzərdə tutulur, bununla əlaqədar 450 fermerlə müqavilə imzalanıb. İşlərin gedişi onu göstərir ki, qarşıya qoyulan vəzifələr yüksək şəkildə yerinə yetiriləcək.

Cənab prezidentin prioritet hesab etdiyi sahələrdən biri də üzümçülükdür. Açığını demək lazımdır ki, üzümçülüyün bugünkü səviyyəsi qaneedici deyil. İstər istehsalda, istər emalda, istərsə də satışda ciddi tədbirlərin görülməsinə ehtiyac duyulur. Ən böyük üzümçülük rayonlarından biri Cəlilabaddır. Bu sahədə rayonda son illər xeyli iş görülüb. Üzümçülüyə maraq böyükdür, çünki Cəlilabadda üzümçülükdə zəngin təcrübə vardır. Hazırda rayonda 1250 hektar üzüm bağları salınıb. Sahibkarlar xaricdən gətirilən texniki və süfrə sortlarına üstünlük verirlər. Sahələrdə texniki üzüm sortlarından – rikasteli, süfrə sortlarından – kardinal, sultani, sentirial, attika, prima, optorial, ağadayı, orreal, redqlob sortları əkilib. 2016-cı ildə sahələrdə orta məhsuldarlıq 100 sentner təşkil edib.

Azərbaycan turizm baxımından da böyük potensiala malik ölkədir. İsmayıllı rayonu bu sırada xüsusi yer tutur. Region üzrə 6 istiqamətdə turist marşrutları hazırlanıb. Rayona BƏƏ-dən, Türkmənistandan, Çexiyadan, Rusiyadan, ABŞ-dan və s. ölkələrdən turistlər təşrif buyururlar. Regionda kənd turizmi, ekoturizmin yayılması üçün zəruri tədbirlər görülür, sakinlərə müvafiq bilgilər və tövsiyələr verilir. Rayonda mövcud olan istirahət məkanları, fərdi evlər haqqında məlumat baza sistemi yaradılıb. «Kənd Yaşıl Turizminin İnkişafına Dəstək» İctimai Birliyinin təşkil etdiyi, kiçik sahibkarlığın inkişafı məqsədilə kənd qonaq evlərində turist xidmətlərinin göstərilməsi qaydaları üzrə maarifləndirmə işlərinin aparılması və metodik vəsaitlərin çapı layihələrində İsmayıllı TİM əməkdaşları yaxından iştirak edirlər. Şamaxı-Balakən turizm dəhlizinin yaradılması həmin ərazilərdə bir neçə üçulduzlu otellərin tikintisinə, bu istiqamətdə digər infrastruktur tədbirlərinin görülməsinə təkan vermişdir. Hazırda rayonda çoxlu sayda turistin yerləşdirilməsi üçün otel inşa olunur. 2010-cu ildə rayona 25 min turist gəlmişdisə, 2016-cı ildə bu rəqəm 101 min nəfərə çatmışdır.

Turistlərin yerləşdirilməsi 23 istirahət mərkəzində həyata keçirilir. 2016-cı ilin iyun ayının 1-dən İsmayıllı rayonunun mərkəzində Turizm bazarı fəaliyyətə başlayıb. Bazarda regionu əks etdirən əl işləri sərgilənir və satışı həyata keçirilir. Burada, həmçinin rəngarəng musiqi proqramları təqdim olunur. Həftənin sonunda İsmayıllı TİM tərəfindən Azərbaycan filmləri nümayiş etdirilir. Rayon ərazisində 233 dövlət tarix-mədəniyyət abidəsi mövcuddur. Bunlardan Cavanşir qalası, Qız qalası, Qırx otaq, Buzxana kimi abidələrə maraq daha böyükdür. Buynuz kəndindəki dağ şəlaləsi, aşağı Gülyanda Gülyan şəlaləsi, Talıstan kəndinin şimalında Qaranovhuz gölü rayonda turizmin gələcək inkişafı üçün geniş imkanlar açır.

Regionların tərəqqisindən danışarkən Masallı rayonunun Heydər Əliyev prospektində yaradılan regional «ASAN xidmət» mərkəzini xüsusilə qeyd etmək lazımdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev keçən il sentyabr ayının 3-də Masallı rayonuna səfəri çərçivəsində bu möhtəşəm binanın açılışını etdi. Bu mərkəz respublikamızda sayca 11-cidir. Masallıda istifadəyə verilən, öz memarlıq üslubu ilə seçilən bu mərkəz regional inkişafa və yüksəlişə bariz nümunədir. Kompleks 4480 kvadrat metr ərazini əhatə edir. Mərkəzdə 10 dövlət qurumu – Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti fəaliyyət göstərir. Kompleksdə vətəndaşların rahatlığı üçün hər cür şərait yaradılıb.

2016-cı ildə bölgələrimizdə görülən işlərə, reallaşdırılan layihələrə qısa ekskurs etməyə çalışdıq və belə qənaətə gəldik ki, böhranın davam etməsinə, neft gəlirlərinin azalmasına rəğmən, uğurlarımız çox olub. **2017-ci ildən gözləntilərimiz çoxdur. Bu il aqrar sahədə həyata keçirilən köklü islahatlar öz real nəticəsini verəcək, iqtisadiyyatımız möhkəmlənəcək, sosial həyatda yaşanan çətinliklər arxadan qalxacaq, regionlarımız daha güclü inkişaf və yüksəliş yoluna çıxacaqdır.**

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

## 2017-ci ilin yanvar ayı ərzində vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında

2017-ci ilin yanvar ayı ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 46 666 zəng üzrə 33 903 sual cavablandırılıb. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 564 661 SMS, ikitərəfli mesaj xidmətinin istifadəçilərinə isə 194284 SMS göndərilib.
Yanvar ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 705586 daxilolma qeydə alınıb.
Vergi ödəyicilərinə xidmət strukturlarında 63420 vətəndaş qəbul edilib və onlara 107789 sayda xidmət göstərilib. 2017-ci ilin 1 fevral tarixinə vergi ödəyicilərinə ümumilikdə 260190 sayda ASAN İmza sertifikatı verilib.

## Vergilər Nazirliyinin kollektivi Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edib

Fevral ayının 11-i Vergilər Nazirliyinin yaradılmasının 17-ci ildönümü və vergi xidməti əməkdaşlarının peşə bayramıdır. Bununla bağlı vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov başda olmaqla nazirliyin və tabeli qurumların nümayəndələri Fəxri Xiyabana gedərək, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, onun abidəsi önünə gül dəstələri qoyublar. Görkəmli oftolmoloq, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad olunub. Daha sonra nazirliyin kollektivi Şəhidlər Xiyabanına gələrək onların məzarlarını ziyarət edib. "Əbədi Məşəl" abidəsi önünə əklil qoyulub, şəhid məzarlarının üzərinə qərənfil dəstələri düzülüb.

## 2017-ci ilin yanvar ayı ərzində vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri haqqında

2017-ci ilin yanvar ayı ərzində vergi orqanlarına 7145 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11% azdır. Müraciətlərdən 97,6%-i ərizə, 2,2%-i şikayət, 0,2%-i təklifdir.
Müraciətlərin 45,9%-i müxtəlif arayışların alınması, 20,1 %-i kameral vergi yoxlamaları, 12,6%-i vergi borcları, 2,4% vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 1,4 %-i vergi qanunvericiliyinin tətbiqi, 1,3 %-i səyyar vergi yoxlamaları, 0,8 %-i işlə təmin olunma, 0,5 %-i qəbul, 0,3 %-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), qalanları isə digər məsələlərlə bağlı olub.
Bütün müraciətlərə vaxtında baxılıb, onların 70,4%-i müsbət həll olunub.
Hesabat dövründə vergi orqanlarında ümumilikdə 194 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinmişdir.
Fevral ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Neft Fondunun 2016-cı il üzrə gəlir və xərclərinə dair məlumat açıqlandı



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bildirir ki, 2016-cı il ərzində ARDNF-nin büdcə gəlirləri 9 milyard 410,2 milyon manat, büdcə xərcləri isə 9 milyard 022,1 milyon manat təşkil etmişdir.
Fonddan daxil olmuş məlumata görə, 2016-cı il ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8 milyard 341,4 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 8 milyard 320,0 milyon manat, bonus ödənişləri 0,1 milyon manat, tranzit gəlirləri 18,0 milyon manat və akrhesabı ödənişlər 3,3 milyon manat təşkil etmişdir. Ötən il ərzində Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 68,8 milyon manata bərabər olmuşdur. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 5 milyard 705,7 milyon manat təşkil etmişdir.
2016-cı il ərzində ARDNF-nin 2016-cı il büdcəsinin icrası çərçivəsində 7 milyard 615,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir.
Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 90,0 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 70,0 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 66,2 milyon manat vəsait ayrılmışdır. 31,6 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. "Cənub Qaz Dəhlizi" layihəsi üzrə 797,4 milyon manat, "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə isə 331,8 milyon manat vəsait ayrılmışdır. 2016-cı il ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 20,1 milyon manat təşkil etmişdir.
2017-ci il yanvarın 1-nə Fondun aktivləri 2016-cı ilin əvvəlinə (33 milyard 574,1 milyon ABŞ dolları) nisbətən 1,27% azalaraq 33 milyard 147 milyon ABŞ dollarına bərabər olmuşdur. Gəlirlərin xərcləri üstələməsinə baxmayaraq, Fondun aktivlərinin azalmasının səbəbi avro, ingilis funt sterlinqi, türk lirəsi və Çin yuanı kimi valyutaların məzənnələrinin ABŞ dollarına qarşı zəifləməsi olmuşdur.

# "PAŞA Həyat" 6 illiyini qeyd edir

Azərbaycanın ən etibarlı həyat sığortaçısı olan "PAŞA Həyat" fəaliyyətə başlamasının 6 illiyini qeyd edir. Şirkətin ictimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, "PAŞA Həyat" 6 il əvvəl - 14 fevral 2011-ci il tarixindən Maliyyə Nazirliyinin müvafiq lisenziyası əsasında fəaliyyətə başlayıb.
Həmin dövrdən "PAŞA Həyat" Azərbaycan iqtisadiyyatına, o cümlədən ölkənin sığortası bazarının inkişafına öz mühüm töhfəsini verərək, Azərbaycanın ən aparıcı həyat sığortası şirkəti statusuna nail olub.
Düzgün və uğurlu strategiya tətbiq etməsi nəticəsində şirkət Azərbaycan sığorta bazarının güclü maliyyə dayanıqlığı olan, həmçinin göstərdiyi yüksək və keyfiyyətli sığorta xidmətlərinə görə müştəri məmnuniyyəti qazanan, yüksək inkişaf meyillərini daim davam etdirən, eləcə də ictimaiyyət arasında ən etibarlı şirkət statusu qazanaraq korporativ dəyərlərə malik bir maliyyə qurumu imicini qazanıb.
Əsas maliyyə göstəricilərinə gəldikdə isə, qeyd etmək lazımdır ki, 6 illik fəaliyyəti dövründə şirkət nizamnamə kapitalını 5,75 dəfə artıraraq 40,250 mln. manata, aktivlərinin həcmini isə 165 mln. manata çatdırıb. Xüsusilə qeyd olunmalıdır ki, aktivlərinin həcminə görə "PAŞA Həyat" Azərbaycanın ümumi sığorta bazarının ən iri sığorta şirkəti hesab olunur.
Bununla yanaşı, şirkət ötən ildə həyat sığortası məhsulları üzrə toplanan yığımların həcminə görə (77,679 mln. manat) ölkədə fəaliyyət göstərən sığorta sirkətləri sırasında ikinci yerdə qərarlaşıb. Məhz bu uğurlu inkişafın nəticəsi olaraq, "PAŞA Həyat" kapital və müxtəlif biznes-maliyyə göstəricilərinə görə Azərbaycanın həyat sığortası bazarının lider şirkətidir.
"PAŞA Həyat" fəaliyyəti dövründə yalnız maliyyə sahəsində əldə etdiyi uğurları ilə deyil, həmçinin müasir tələblərindən irəli gələrək, cəmiyyət üçün mühüm əhəmiyyət daşıyan tarixi-mədəni irsin qorunması, idmanın inkişafı və bir çox maraqlı sosial layihələri ilə də gündəmdədir.
Hazırda "PAŞA Həyat" inkişafını yüksələn xətlə davam etdirir. Şirkət müştərilərə müxtəlif həyat sığortası məhsulları, o cümlədən "həyatın müddətli sığortası", "istehsalatda bədbəxt hadisələrdən icbari sığorta", "yığım tərkibli yaşam sığortası", "sağalmaz xəstəliklərdən sığorta" və digər könüllü həyat sığortası məhsulları təklif edir.

# Banklarda kart müştərilərinin sayı azalıb

2017-ci ildə bankların kredit kartlarının sayı 379 min ədəd azalaraq 31 dekabr 2016-cı il tarixində 631 min ədədə düşüb.
Mərkəzi Bankın statistikasına əsasən, kredit kartlarının sayı 2015-ci ilin əvvəlindən azalıb. Belə ki, 2015-ci ilin yanvar ayının sonunda kredit kartlarının sayı 1 milyon 322 min ədədə çıxmışdı. Beləliklə, təxminən ötən 2 il ərzində kredit kartlarının sayı 2 dəfədən çox azalıb.
Ötən il 2015-ci ilin sonu ilə müqayisədə debet kartlarının sayı (əməkhaqqı, sosial və digər debet kartları) 53 min ədəd artaraq 31 dekabr 2016-cı il tarixinə 4 milyon 703 min ədədə çıxıb.
Ötən il debet kartlarından əməkhaqqı kartlarının sayı 101 min ədəd artaraq 2 milyon 552 min ədədə, sosial kartların sayı isə 54 min ədəd artaraq 1 milyon 521 min ədədə çatıb. Digər debet kartlarının sayı isə 102 min ədəd azalaraq 630 min ədədə düşüb. 2015-ci ilin ortalarında digər debet kartlarının sayı 900 min ədəd civarında idi.
Ötən il 2015-ci ilin sonu ilə müqayisədə Azərbaycanda cəmi ödəniş kartlarının sayı (debet və kredit kartları daxil) 325 min ədəd azalaraq 5 milyon 334 min ədədə düşüb. 2015-ci ilin əvvəlində cəmi kartların sayı 6 milyon ədəddən çox idi.

# Xarici valyutada olan əmanətlər azalıb

Banklarda əhalinin xarici valyutada olan əmanətlərinin cəmi əmanətlərdə xüsusi çəkisi 80%-dən aşağı düşüb.
Ötən ilin sonuna fiziki şəxslərin banklardakı əmanətləri 7 milyard 448,7 milyon manat təşkil edib. Əmanətlərin 1 milyard 517,2 milyon manatı və ya 20,4%-i milli valyutada, 5 milyard 931,4 milyon manatı və ya 79,6%-i xarici valyutada olub. Noyabr ayının sonunda fiziki şəxslərin əmanətlərinin 81,2%-i xarici valyuta ilə yerləşdirilmişdi. Ümumiyyətlə, 2016-cı ilin əvvəlki ayları ərzində xarici valyutada yerləşdirilmiş əmanətlər cəmi əmanətlərin 80%-dən çoxunu təşkil edirdi.
Dekabrda noyabrla müqayisədə xarici valyuta ilə yerləşdirilmiş əmanətlər 243,9 mln. manat azalaraq 6 mlrd. 175,3 mln. manatdan 5 mlrd. 931,4 mln. manata düşüb, milli valyutadakı əmanətlər isə 86,7 mln. manat artaraq 1 mlrd. 430,5 mln. manatdan 1 mlrd. 517,2 mln. manata qalxıb. Əmanətlərin 80%-ə yaxını xarici valyutada olduğundan dolların bahalaşması manat ilə ifadədə əmanətlərin artması ilə nəticələnir.

## Gömrük xəttilə büdcəyə 68%-ə yaxın vergi və rüsum ödənilib

Dövlət Gömrük Komitəsi (DGK) 2017-ci ilin yanvar ayında dövlət büdcəsinə 173 milyon 653,49 min manat məbləğində vergi və rüsum köçürüb ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 67,6% çoxdur. Bu barədə DGK-dan məlumat verilib.
Bu ilin yanvar ayında dövlət büdcəsinə ƏDV üzrə daxilolmalar 124 milyon 631,39 min manat, aksizlər üzrə 2 milyon 691,77 min manat, yol vergisi üzrə 2 mln. 113,27 min manat təşkil edib. Bundan başqa, hesabat dövründə gömrük rüsumları üzrə köçürmələr 44 milyon 217,05 min manat məbləğində olub. 2017-ci ildə DGK-nın xətti ilə dövlət büdcəsinə daxilolmalar 2 milyard 200 mln. manat həcmində proqnozlaşdırılır.

# Стоимость азербайджанской нефти увеличилась на 1,3%

Цена азербайджанской легкой нефти, добываемой на блоке месторождений "Азери-Чираг-Гюнешли", на базисе CIF в итальянском порту Аугуста 14 февраля составила 57,42 доллара за баррель, что на 0,76 доллара больше показателя понедельника, сообщил Trend в среду источник на нефтегазовом рынке страны. На базисе FOB в турецком порту Джейхан цена Azeri Light 14 февраля составила 56,79 доллара за баррель, что на 0,77 доллара больше предыдущей цены. Азербайджан добывает Azeri Light с 1997 года и экспортирует этот сорт по трубопроводам Баку-Тбилиси-Джейхан и Баку-Супса, а также в грузинский порт Батуми – по железной дороге.

Азербайджан также продает свою нефть сорта URALS из российского черноморского порта Новороссийск, доставляя сырье по трубопроводу Баку-Новороссийск. Цена на URALS с отгрузкой из порта во вторник составила 52,97 доллара за баррель, что на 0,8 доллара больше предыдущей цены. Стоимость барреля нефти эталонного сорта Brent Dated, добываемой в Северном море, во вторник составила 55,24 доллара за баррель, что на 0,81 доллара больше показателя понедельника.

# Удельный вес вкладов в регионах Азербайджана вырос

В январе-декабре 2016 года банковские вклады населения в регионах Азербайджана составили 498,58 миллиона манатов, или 6,69 процента от всех вкладов.

По данным отчета ЦБА, в аналогичный период 2015 года удельный вес банковских вкладов в регионах составлял 6,4 процента (606,7 миллионов манатов). На начало января 2017 года, по Баку объем вкладов составил 6,95 миллиард манатов, при этом на вклады в национальной валюте пришлось только 1,26 миллиарда манатов.

В отчетный период объем сбережений жителей регионов Азербайджана в иностранной валюте составил почти 243,9 миллиона манатов или 48,92 процента от всех вкладов в регионах. Для сравнения, в декабре 2015 года данный показатель составил 393,2 миллиона манатов (64,8 процента от всех вкладов в регионах).

По итогам 2016 года среднегодовая депозитная ставка по стране и в Баку составила 4,8 процента.

*Распределение банковских вкладов по регионам Азербайджана:*

| Экономические районы | Объем вкладов (тыс. манатов) | Средняя процентная ставка (%) |
|---|---|---|
| Абшеронский | 164 853,9 | 5,8 |
| Аранский | 81 509,3 | 4,7 |
| Горно-Ширванский | 11 897,7 | 5,6 |
| Гянджа-Газахский | 106 544,0 | 5,7 |
| Губа-Хачмазский | 34 935,5 | 5,5 |
| Лянкяранский | 34 025,1 | 6,4 |
| Шеки-Загатальский | 29 141,7 | 4,5 |
| Верхне-Карабахский | 6 052,7 | 3,5 |
| Кельбаджар-Лачинский | 22,8 | 10,8 |
| Нахчыванский | 29 597,6 | 2,3 |

# Россия расширит инвестиции в агросектор Азербайджана



Азербайджан и Россия обсуждают реализацию новых проектов в сфере сельского хозяйства. «В настоящее время мы в рамках совета изучаем ряд проектов по привлечению различных инвестиций, как с российской стороны, так и из Азербайджана в РФ. Переговоры находятся в проектной стадии, поэтому я не могу пока рассказать о них подробнее, но в основном они охватывают сельское хозяйство", - сказал Саттаров.

По его словам, существуют традиционные сферы инвестирования российских инвесторов. "В первую очередь, это сельское хозяйство, нефтяная и банковская сферы. Например, в Азербайджане очень активно работают группа ВТБ и компания ЛУКОЙЛ. Это огромные сферы деятельности, в которых имеется большой потенциал для развития сотрудничества", - сказал он. Говоря о деятельности деловых советов между Азербайджаном и РФ, Саттаров не исключил возможность осуществления в этом году взаимных визитов.

Азербайджано-российский деловой совет и российско-азербайджанский деловой совет были созданы в 2016 году. Всего в эти советы входит более 50 различных компаний.

По данным Государственного таможенного комитета Азербайджана, товарооборот с Россией в 2016 году составил более 2,05 миллиарда долларов, из которых 1,6 миллиарда долларов пришлись на импорт российской продукции.

# В Азербайджане продолжают расти ставки по депозитам в манатах

В декабре 2016 года средняя процентная ставка по депозитам и вкладам в банках Азербайджана по сравнению с предыдущим месяцем выросла в национальной валюте и сократилась в иностранной валюте, следует из отчета Центрального банка. По данным отчета, средняя ставка по банковским депозитам и вкладам в манатах составила 6,5 процента против 6,36 процента месяцем ранее и 8,08 процента - в декабре 2015 года. Средняя ставка по депозитам в инвалюте составила 4,66 процента, тогда как месяцем ранее она равнялась 4,68 процента, а в декабре 2015 года – 8,06 процента. В декабре 2016 года банки привлекали депозиты юридических лиц в манатах под 3,91 процента годовых. В ноябре 2016 и декабре 2015 года этот показатель составлял 3,79 и 5,82 процента соответственно. Средства на счетах, номинированных в иностранной валюте, принесли юридическим лицам 3,34 процента в декабре 2016 года, 3,2 процента - в ноябре и 8,83 процента - в декабре 2015 года. Средняя ставка по вкладам физических лиц в манатах составила на первое января 2017 года 10,31 процента. Данный показатель на первое декабря был равен 10,18 процента, а на первое января 2016 года – 9,14 процента. По вкладам физических лиц в иностранной валюте процентные ставки распределились следующим образом: в декабре – 5,44 процента, в ноябре – 5,6 процента, а в декабре 2015 года – 8,83 процента.

В Азербайджане в декабре 2016 года действовали 32 банка, в том числе два с государственным участием.

# ОПЕК: прогнозы по нефтедобыче в Азербайджане

Ежесуточный объем добычи нефти в Азербайджане в 2017 году сократится на 40 тысяч баррелей и составит в среднем 0.81 миллиона баррелей, говорится в опубликованном сегодня докладе ОПЕК по нефтяному рынку.

Добыча нефти в Азербайджане в декабре 2016 года увеличилась на 90 тысяч баррелей в день по сравнению с ноябрьскими объемами. Тем не менее, ежесуточный объем нефтедобычи в стране во второй половине 2016 года был на 30 тысяч баррелей ниже по сравнению с 0,86 миллиона баррелей в сутки, произведенного в первой половине 2016 года".

В начале февраля 2017 года, Азербайджан представил совместной технической комиссии мониторингового комитета ОПЕК данные о ежесуточной добыче нефти в стране в январе в рамках выполнения Венского соглашения по сокращению производства.




Согласно данным, в январе ежесуточная добыча нефти в Азербайджане составила 793,9 тысячи баррелей, из которых 50,8 тысячи баррелей пришлось на конденсат. Ежесуточно экспортировалось 617 тысяч баррелей нефти, 50,8 тысячи баррелей конденсата и 24,2 тысячи баррелей нефтепродуктов.

Основной объем нефти, добываемой в Азербайджане, приходится на блок морских месторождений "Азери-Чираг-Гюнешли". На этой площади добывается легкая нефть сорта Azeri Light.

По данным BP, доказанные запасы нефти в Азербайджане на начало 2016 года составляли семь миллиардов баррелей.

По данным Государственного комитета по статистике Азербайджана, в 2015 году в стране было добыто 41,69 миллиона тонн нефти и газового конденсата, что на 0,8 процента меньше, чем годом ранее.

# Доллар и евро продолжают дешеветь



Евро и доллар дешевеют по отношению к рублю уже пять торговых сессий подряд. Во вторник к 14.14 мск курс евро расчетами «завтра» на Московской бирже опустился ниже 61 руб. – впервые с июня 2015 г. Доллар тоже терял в цене: днем он торговался в диапазоне 57,3–57,7 руб. К 19.00 мск за американскую валюту давали 57,5 руб., что на 50 коп. меньше по отношению к закрытию торгов в понедельник. Евро стоил 60,8 руб. – на 70 коп. меньше закрытия. С начала года доллар потерял 3,5 руб., а европейская валюта – 2,7 руб.

# Еврокомиссия улучшила прогноз по росту ВВП России

Еврокомиссия улучшила прогноз по росту ВВП России в 2017 г. до 0,8% вместо прежнего прогноза о росте на 0,6%. Прогноз по динамике ВВП России на 2018 г. также улучшен – до 1,1% с прежних 0,8%. Прогноз был улучшен после стабилизации нефтяных цен и курса рубля. Аналитики ЕК ожидают, что российская экономика перейдет к росту в 2017 и 2018 гг., хотя расти будет умеренными темпами.

По прогнозам ЕК, уровень безработицы в России в 2017 г. составит 5,7%, в 2018 г. - 5,6%, а инфляция - 5,2% и 4,7% соответственно.

Рост экономики в странах еврозоны замедлится в 2017 г. и восстановится в 2018 г., тогда как британская экономика к 2018 г. почти вдвое сократит темпы роста. Как считают эксперты, рост в 19 странах еврозоны замедлится до 1,6% в 2017 г. против 1,7% в 2016 г., но ускорится в 2018 г. - на 1,8%. В ноябрьском прогнозе рост ВВП в 2017 г. оценивался в 1,5%, а в 2018 - в 1,7%. Прогноз был пересмотрен, поскольку во второй половине 2016 г. экономика еврозоны показала лучшие результаты и достаточно хорошо начала 2017 г.

В прогнозе заложена «большая, чем обычно, неопределенность», цитирует агентство сообщение ЕК: «еще до конца не ясные» планы президента США Дональда Трампа в «ключевых областях политики» рассматриваются в качестве основной причины неопределенности в экономике блока, который также столкнется с другими политическими рисками из-за вероятного начала в этом году переговоров о Brexit, а также выборов в ряде стран ЕС.

По уточненному прогнозу ЕК, рост ВВП Великобритании замедлится до 1,5% в 2017 г. с 2% в 2016 г. и замедлится до 1,2% в 2018 г. В ноябре прогноз ЕК был еще менее оптимистичным: эксперты ожидали роста британской экономики на 1,9% в 2016 г., на 1% - в 2017 г. и на 1,2% - в 2018 г.

Потребительские цены в странах еврозоны, как ожидается, в нынешнем году сильно вырастут, инфляция подскочит на 1,7% с 0,2% в прошлом году. В 2018 г. темпы инфляции, как ожидается, вновь замедлятся - до 1,4%.

# В МИРЕ

## Дефицит бюджета России составил 0,4% ВВП

Дефицит бюджета России за январь 2017 г. составил 23,398 млрд руб., или 0,4% ВВП. Доходы федерального бюджета в январе 2017 г. составили 1,264 трлн руб., расходы – 1,287 трлн руб. По итогам 2016 г. дефицит федерального бюджета России сложился в размере 2,967 трлн руб., или 3,5% ВВП. Хотя, по прогнозам Минфина, дефицит федерального бюджета по итогам прошедшего года должен был составить 3,9% ВВП. Председатель Счетной палаты Татьяна Голикова ранее заявляла, что дефицит бюджета России в текущем году может быть ниже, чем прогнозирует Минфин, если в России сохранятся оптимистичные экономические тренды. Сейчас в федеральном бюджете заложен дефицит в 3,2% ВВП по итогам 2017 г.

## В Украине обсудили возможность запуска мобильной электронной подписи

В компании B.EST Solutions, являющейся оператором услуги Asan İmza, этот вопрос обсуждался в Киеве на мероприятии, организованном Государственным агентством по вопросам электронного управления Украины. Учитывая уровень проникновения мобильных технологий в повседневную жизнь и профессиональную деятельность, тенденции к внедрению технологий новых стандартов сотовой связи, таких как 3G и LTE, а также повышение спроса на смартфоны, технология Mobile ID выглядит одной из наиболее перспективных в контексте предоставления электронных услуг гражданам как со стороны государства, так и коммерческих предприятий. Mobile ID предполагает размещение на SIM-карте телефона мобильной электронной подписи, которая будет служить идентификатором личности для создания юридически значимых электронных документов.

# В Азербайджане будет создан банк со 100%-м иранским капиталом



На банковский рынок Азербайджана планирует выйти еще один иранский банк. “На повестке дня создание в Азербайджане нового банка со 100-процентным иранским капиталом", - сказал Сеиф, отметив, что этот вопрос будет обсуждаться в ходе визита азербайджанской делегации в Тегеран на следующей неделе. Ранее были планы по созданию совместного банка в Азербайджане, филиалы которого будут действовать как в Азербайджане, так и Иране. Глава Центробанка также сообщил о планах перехода во взаимных расчетах в двусторонних операциях с Азербайджаном на национальные валюты. "Центральные банки планируют открыть расчетные счета в национальных валютах, чтобы упростить торговлю между Ираном и Азербайджаном", - сказал Сеиф.

Он добавил, что Тегеран и Баку провели переговоры по расширению финансового сотрудничества, в том числе расширению связей между коммерческими банками двух стран. Обсуждения будут продолжены на следующей неделе в Тегеране. В Азербайджане с 1993 года действует филиал Bank Melli Iran.

На сегодняшний день в Азербайджане действуют 32 (в том числе 15 банков с участием зарубежного капитала), в Иране - 36 банков (в том числе филиалы пяти иностранных банков и один совместный банк).

# Daxili bazarın qorunması: dünya təcrübəsi

> Daxili bazarımızı qorumaq üçün əlavə tədbirlər görülməlidir və burada çox çevik siyasət aparılmalıdır. Biz vaxt itirməməliyik. Bu məsələlər çox operativ şəkildə həll edilməlidir. Görəndə ki, biz hansısa məhsulla özümüzü tam 100 faiz təmin edirik, dərhal o məhsula rüsum qalxmalıdır. Nəinki bu sahədə, bütün sahələrdə çox operativ, çevik siyasət aparılmalıdır.
>
> **İlham Əliyev**

**(əvvəli 6-cı sayımızda)**

**Avropa Birliyi (AB)**

AB-də genetik cəhətdən dəyişdirilmiş qarğıdalı və kalışın satışına qoyulmuş qadağa ABŞ ixracatçılarına daha çox zərbə endirir. İspaniya və Portuqaliyada onların AB-yə daxil olması ilə əlaqədar olaraq ABŞ-a dəyəcək zərəri örtmək üçün bağlanmış müqaviləyə əsasən müəyyənləşdirilmiş kvota çərçivəsində bu növ kənd təsərrüfatı məhsullarına qarşı aşağı salınmış tariflər fəaliyyət göstərir. Lakin bu məhsulların ABŞ-dan İspaniya və Portuqaliyaya ixracına çoxlu maneələr var. Bu, yeni texnologiyalar əsasında hazırlanmış məhsulların bazara buraxılması sahəsindəki tənzimləmə sisteminin təkmil olmamasının nəticəsidir. Həmçinin, ABŞ-dan müxtəlif dezinfeksiya edilmiş mallar əsasında emal olunmuş toyuq, ət və ət məhsullarının ixracı da çətindir. Bir çox sanitar, ekoloji və təhlükəsizlik tələbləri də ixracatçılara problemlər yaradır. Belə ki, AB tərkibində məsaməli ensefalit daşıyıcıları olan ət məhsullarının istehsalı və bazara buraxılışı ilə əlaqədar olaraq Avropa istehsalçılarına qarşı tələblərini artırıblar ki, bu da bilavasitə üçüncü ölkələrin istehsalçılarına zərbə vurur. Bundan əlavə, AB coğrafi baxımdan hansı məhsulların onun daxili tələblərinə cavab verdiyini seçmək hüququnu özündə saxlayır. AB-də elektrik malları və avadanlıqlarının tərkibində qurğuşun, kadmium və s.-nin olmasını qadağan edən direktiv qəbul olunub. Bir çox ölkələrdə (Finlandiya, İsveç) tərkibində ozon qatının deşilməsinə gətirib çıxaran maddələr olan soyuducuların ixracına qadağa qoyulub ki, bu da ABŞ ixracatçılarına mənfi təsir edir.

Bir çox hallarda AB-nin sərt addımları elmi, tibbi və ekoloji baxımdan əsaslandırılır və rəqiblərin daxili bazardan sıxışdırılması təəssüratı yaradır. Məsələn, yeni qaydaya görə, üçqat superfosfat gübrəsinin suda həll olması 93% olmalıdır. Bunun üçün heç bir elmi əsas olmasa da, bu tələbə əməl etmədən gübrəni markalamaq və AB bazarlarında satmaq olmaz. Formal olaraq daha az həll olma dərəcəsi ilə də gübrələri satmaq olardı. Lakin onların satışı və qiyməti aşağı olduğundan bu, diskriminasiya effekti yaradır.

Elektrik malları və avadanlıqları tərəfindən buraxılan kiçik tezlikli şüalanmalara qarşı məhdudiyyətlərin tətbiqinin heç bir elmi əsası yoxdur. Belə məhdudiyyətlər üçüncü ölkələri AB-yə ixrac olunan mallarına yenidən baxmağa məcbur edir ki, bu da milyardlarla dollara başa gəlir. Yaxın dövrlərdə elektromaqnit sahələri tərəfindən yaradılan şüalanmaya qarşı standartlar baxımından da sərt tədbirlər görüləcək. Milli istehsalçıların artıq bu tələblərə əməl etdiyini nəzərə alsaq, onda aydın olur ki, ilk dövrlərdə bu daxili bazarın qorunmasına xidmət edəcəkdir.

İstehsal olunmuş malın texnologiyasına standartların və tələblərin tətbiqi üçüncü ölkələrə qarşı diskriminasiya yaradır. Belə diskriminasiya xüsusən yeyinti sənayesində daha çox yayılıb. Şərab bazarı buna əyani misaldır. Şərab idxalı və satışı onun AB-dəki təcrübəyə uyğun olaraq istehsalını tələb edir. Ona görə də AB-də xarici şərabların idxalı və satışı müvəqqəti istisnalar şəraitində ola bilər. Müstəsna hallarda belə müvəqqəti istisnalar ABŞ-a öz şərabını AB-də satmağa imkan verir.

AB-də televiziya, telekommunikasiya, poçt və hüquqi xidmətlər sahəsində mövcud olan maneələr üçüncü ölkələrdə, xüsusən ABŞ-da ciddi narahatlıq doğurur:

Televiziya (televerilişlər). 1989-cu ildə AB-də televiziya efirində vaxtın böyük hissəsinin Avropa proqramları tərəfindən alınması haqqında direktiv qəbul edilmişdir. 1993-cü ildə bütün AB ölkələri bu direktivi qanunverici aktların tərkibinə daxil edərək üçüncü ölkələrə zərbə endirmiş oldular. Bundan əlavə, AB-nin bir çox ölkələrində teleproqramlarla maneəsiz mübadiləyə qadağa qoyan qanunlar fəaliyyət göstərir. Fransada efir vaxtının 60%-də Avropa verilişləri göstərilməli, fransız verilişlərinə isə 40% yer ayrılmalıdır. Bu, təkcə ümumi deyil, praym-tayma da aid edilir və ABŞ-a daha çox zərbə vurur. Avropa verilişlərinin verilməsinə qarşı kvotaların tətbiqinə İtaliya və İspaniyada da rast gəlmək olar. Həmçinin, onların kinoteatrlarda Avropa filmlərinin göstərilməsinə də kvotalar tətbiq olunur.

Telekommunikasiya xidmətləri. Bu bazarın liberallaşdırılmasına 80-ci illərin sonlarından başlanılıb. ÜTT çərçivəsində əldə olunmuş razılaşmaya əsasən, AB-nin bütün ölkələri bu sahədə bazarın açıqlığına xidmət etməli və üçüncü ölkə operatorları üçün milli rejim tətbiq etməli idilər. 2000-ci ilin iyulunda AB telekommunikasiya xidmətləri sahəsində ümumi rəqabət prinsiplərini bərqərar etmək məqsədilə yeni tənzimləmə metodlarının işlənib hazırlanmasını təklif edib. Buna baxmayaraq, AB çərçivəsində liberallaşdırma və ümumiləşdirmə çox qeyri-bərabər gedir.

Bu sahədə əsas problem milli kanallardan birgə istifadədir. Bir çox ölkələrdə əvvəlki kimi milli inhisarlara üstünlük verilir. Bundan əlavə, üçüncü ölkələr üçün lisenziyalaşdırma prosesinin çətin və çox vaxt aparması, icarə kanallarının gec təqdim olunması, rabitə xidmətlərində tarif limitlərinin və qoşulma sistemində diskriminasiya hallarının mövcudluğu da maneələrin yaradılmasına səbəb olur. AB-nin bir çox ölkələrində üçüncü ölkələrin şirkətləri milli inhisarlar tərəfindən sıxışdırılır. Fransada France Telecom üçüncü ölkələrin lisenziya almamış şirkətləri ilə şəbəkəyə qoşulma barədə hər hansı müqavilə bağlamaqdan imtina edir. Onların lisenziya alması üçün təqdim olunacaq ərizədə biznes-planın tərtib olunması haqqında informasiya da olmalıdır. Almaniyada lisenziya alışı bir çox AB ölkələrindən baha başa gəlir ki, bu da daxili bazarın səmərəli qorunmasına xidmət edir. Deutsche Telecom səmərəli surətdə müxtəlif məhdudiyyətlər təcrübəsindən istifadə edir.

| 1986-2011-ci illərdə kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsi, ümumi gəlirlərdən %-lə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Ölkələr** | **İllər** | | | | | | | |
| | **1986** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** |
| **Avstraliya** | 13,0 | 3,6 | 4,5 | 5,1 | 4,4 | 3,1 | 2,6 | 3,0 |
| **Kanada** | 37,4 | 21,3 | 20,9 | 16,5 | 13,3 | 17,4 | 16,7 | 14,2 |
| **Çili** | m/y | 5,0 | 4,2 | 3,7 | 3,4 | 5,5 | 3,4 | 3,5 |
| **İslandiya** | 75,6 | 66,9 | 64,5 | 55,5 | 52,4 | 51,3 | 47,1 | 43,7 |
| **Yaponiya** | 65,1 | 53,8 | 51,6 | 46,7 | 48,3 | 49,0 | 53,3 | 51,6 |
| **Cənubi Koreya** | 64,5 | 59,7 | 58,6 | 57,4 | 45,5 | 50,9 | 44,8 | 53,3 |
| **Meksika** | 3,6 | 12,9 | 13,2 | 13,0 | 12,0 | 13,8 | 11,9 | 11,6 |
| **Yeni Zelandiya** | 19,7 | 1,3 | 0,9 | 0,7 | 0,6 | 0,4 | 0,5 | 0,8 |
| **Norveç** | 69,6 | 66,8 | 64,1 | 54,6 | 59,4 | 61,2 | 60,8 | 57,7 |
| **İsveçrə** | 74,5 | 66,1 | 65,3 | 48,8 | 56,0 | 60,3 | 53,5 | 54,4 |
| **Türkiyə** | 17,3 | 33,2 | 33,4 | 26,2 | 26,3 | 28,4 | 25,5 | 20,2 |
| **ABŞ** | 24,1 | 15,3 | 11,2 | 10,0 | 8,8 | 10,6 | 7,7 | 7,7 |
| **AB** | 38,6 | 30,4 | 29,0 | 23,5 | 22,0 | 23,3 | 19,8 | 17,5 |

Poçt xidməti. AB-də mövcud olan bir çox poçt inhisarları daxili bazara girişi çətinləşdirir və rəqabət üçün qeyri-bərabər şərait yaradır. Avropa komissiyası tərəfindən irəli sürülmüş inhisarların əlində olan bir çox xidmətlərin məhdudlaşdırılması təklifi müxalifət tərəfindən güclü tənqid olunmuşdur.

Hüquqi xidmətlər. Avstriyada xarici və beynəlxalq hüquq sahəsində konsultativ xidmətləri yalnız Avstriya Hüquqşünaslar Assosiasiyasına daxil olan hüquqşünaslar göstərə bilərlər. Bu assosiasiyaya yalnız Avstriya vətəndaşları daxil ola bilərlər. Danimarkada yerli hüquqşünaslar assosiasiyasına daxil olmayan xarici hüquqşünaslar xarici müştərilərə beynəlxalq hüquq sahəsində məsləhətlər verə bilməzlər. Bundan əlavə, xarici firma tərəfindən öz adından istifadə etmə, reklam və Danimarka hüquqşünaslar birliyinə daxil olma sahəsində məhdudiyyətlər mövcuddur. Fransada üçüncü ölkələrin firmalarına öz ölkələrində tanınan ad altında firma açmaq, yerli hüquqşünaslarla birgə müəssisə yaratmağa icazə verilmir. Belə hal İtaliyada da mövcuddur. Bundan əlavə, müştərilərini məhkəmədə yalnız İtaliya Hüquqşünaslar Assosiasiyasının üzvü olan ölkələr (xüsusi halda AB ölkələrinin hüquqşünasları) təmsil edə bilərlər. Oxşar hallar mühasibat və auditor xidmətləri sahəsində də mövcuddur.

Bir çox hallarda avropalılar daxili bazarın qorunması sahəsindəki addımlarını AB-nin iri tərəf müqabilləri, xüsusən ABŞ-ın hərəkətlərinə cavab reaksiyası kimi qələmə verirlər. 2001-ci ilin iyulunda hazırlanan Avropa komissiyasının 17-ci illik hesabatı ABŞ-da AB ixracatçılarının qarşılaşdığı problemlərin təhlilinə həsr olunmuşdu. Hesabat AB-nin ümumi siyasət konteksti çərçivəsində hazırlanmışdı.

Avropa Komissiyası tərəfindən amerikalılara qarşı çoxlu iradlar vardır. Avropalıların nöqteyi-nəzərincə AB ilə ABŞ arasındakı ticarət münasibətlərindəki ziddiyyətlər onların qanunvericiliyindəki eksterritoriallıqla bağlıdır: onların ticarət qanunvericiliyində ayrı-ayrı ölkələr və şirkətlərə qarşı birtərəfli tədbirlərin görülməsi (ticarət qanunvericiliyindəki norma); ABŞ-da kənd təsərrüfatı, yüngül sənaye, zərgərlik məmulatları, dəri və şüşə məmulatları, yük maşınları, avtovaqonlar və digər mallara münasibətdə idxal rüsumlarının mövcudluğu; ABŞ-da gömrük sisteminin mürəkkəbliyi bir çox hallarda malların AB-nin istehsalı kimi tanınmasına imkan vermir; ABŞ qanunvericiliyində «milli maraqlar» anlayışının aydın açıqlanmaması bir çox hallarda proteksionist tədbirlərdən istifadə olunmasına səbəb olur.

Bundan əlavə, ABŞ federal standartları Avropa istehsalçılarının bilavasitə maraqlarına toxunur. Onlar beynəlxalq norma və standartlardan fərqlənir və Avropa standartları ilə hazırlanmış malların ABŞ bazarlarına daxil olmasına maneəçilik törədir. Əczaçılıq şirkətləri tərəfindən dərmanların satışı üçün ərzaq və tibb məhsullarının keyfiyyətinə nəzarət idarəsindən razılığın alınması illərlə çəkir. Kənd təsərrüfatı məhsullarının konkret sanitar normalara əməl etməsi, avropalıların fikrincə, əsassızdır. ABŞ-da fəaliyyət göstərən patent sistemi dünyada qəbul olunmuş ümumi praktikadan fərqlənir. Həmçinin, ABŞ-da dövlət sifarişlərinin paylanması sistemi də AB-də narahatlıq doğurur.

Beləliklə, AB ilə üçüncü ölkələr arasındakı ticarət münasibətləri ziddiyyətlidir və tez-tez bir-birlərini qarşılıqlı surətdə proteksionizm tətbiq etməkdə ittiham edirlər.

**Mansur Mədətov,**
**iqtisad üzrə fəlsəfə doktoru**

# Orta aylıq əməkhaqqı açıqlandı

2017-ci il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 514,0 min nəfər olmuş, onlardan 889,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 624,1 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 22,2 faizi təhsil, 19,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,9 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 10,8 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2016-cı ilin yanvar-dekabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,9 faiz artaraq 498,6 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, tikinti, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Kredit hesabına tikilən 65 müəssisə istifadəyə veriləcək



2017-ci ildə Azərbaycanda Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) krediti hesabına tikilən 65 istehsal və emal müəssisəsi istifadəyə veriləcək. Bu barədə SKMF-dən məlumat verilib.

"Bu il Azərbaycanda fondun vəsaitləri hesabına inşa edilən 65 istehsal, emal və infrastruktur müəssisəsinin işə salınması planlaşdırılır", - deyə məlumatda bildirilir. Son illər ərzində 410 investisiya layihəsinin reallaşdırılması üçün SKMF-nin xətti ilə 1,3 mlrd. manat güzəştli kredit ayrılıb.

"Ümumi dəyəri 2,7 mlrd. manat təşkil edən bu layihələr çərçivəsində artıq 345 müəssisə işə salınıb", - deyə məlumatda qeyd edilir.

# Türkiyəyə yatırılan sərmayələrin həcmi artır



2016-cı ildə Türkiyə iqtisadiyyatına xarici investorlar tərəfindən 6,724 mlrd. dollarlıq investisiya yatırılıb. "Anadolu" agentliyi xəbər verir ki, yatırımların 30%-i ilin sonunda gerçəkləşib.

Ötən ilin dekabrında Türkiyə iqtisadiyyatına 1,991 mlrd. dollarlıq investisiya qoyulub ki, bu da 17 illik rekord hesab olunur. Ötən ilin son ayında yatırılan investisiyanın həcmi noyabr ayı ilə müqayisədə 4,5 dəfə, 2015-ci ilin dekabr ayı ilə müqayisədə isə 37,4% çoxdur.

Qeyd edək ki, 2015-ci ildə Türkiyə iqtisadiyyatına 12,1 mlrd. dollarlıq investisiya yatırılıb.

Ötən il Türkiyəyə ən çox investisiya yatıran Avropa ölkələri olub. "Köhnə qitə"-nin ölkələri toplamda Türkiyəyə 4,265 mlrd. dollarlıq investisiya edib. Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə Avropa ölkələri Türkiyəyə 7,98 mlrd. dollarlıq investisiya yatırıb.

Avropa ölkələri arasında 2016-cı il ərzində Türkiyəyə ən çox Böyük Britaniya investisiya qoyub. Hesabat dövründə Böyük Britaniyanın qardaş ölkəyə yatırdığı investisiyanın həcmi 961 mln. dollar həcmində olub. Böyük Britaniyanı 956 mln. dollarlıq göstərici ilə Hollandiya izləyib. Üçüncü yerdə 430 mln. dollarlıq investisiya ilə Almaniya qərarlaşıb. Dördüncü yeri Türkiyə iqtisadiyyatına 409 mln. dollarlıq investisiya qoyan İspaniya tutub.

Hesabat dövründə Asiya ölkələri Türkiyəyə 2 mlrd. dollarlıq investisiya yatırıb. Asiya ölkələri arasında Azərbaycan mütləq liderdir. Asiya ölkələri arasında Türkiyəyə ən çox Azərbaycan investisiya yatırıb. Ötən il ərzində Azərbaycan qonşu ölkəyə 652 mln. dollar həcmində investisiya qoyub. Azərbaycanı 375 mln. dollarlıq yatırımla Qətər təqib edib.

2016-cı ilin dekabrın Böyük Britaniya Türkiyə iqtisadiyyatına 444 mln. dollar, Hollandiya 394 mln. dollar, Çin 300 mln. dollar, Qətər 285 mln. dollar, Azərbaycan isə 175 mln. dollar yatırıb.

# Banklar xaricə 1 milyarda yaxın borc qaytarıb

Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının xarici öhdəliklərinin həcmi bu il yanvarın 1-nə 7 milyard 224,8 milyon manat (təxminən 4,2 milyard dollar) təşkil edib.

Bu, ötən il dekabrın 1-i ilə müqayisədə 185,7 milyon manat və ya 2,64% çoxdur. Son 1 ildə isə bankların xarici öhdəlikləri 979,7 milyon manat (təxminən 570 milyon dollar) və ya 11,94% azalıb. Hesab edilir ki, xarici öhdəliklərinin dekabr ayında artması manatın məzənnəsinin zəifləməsi ilə bağlıdır. Milli valyuta ucuzlaşmaqda davam etdiyi üçün xarici öhdəliklərin bu ilin yanvar ayında da artım nümayiş etdirməsi proqnozlaşdırılır.

# Xaricilər arasında rusiyalı turistlər birinci yeri tutur

"TurStat" agentliyi Rusiya turistləri üçün 2016-cı ildə ən populyar xarici ölkələrin adlarını açıqlayıb.

2016-cı ildə Azərbaycan rusiyalı turistlər arasında populyarlığına görə ilk onluğa düşüb. Belə ki, ötən il Rusiyadan ölkəmizə 740 min turist gəlib. Azərbaycana gələn xaricilər arasında rusiyalı turistlər birinci yeri tutur.

"TurStat"ın araşdırmasına görə, Tunis, Mərakeş, Kipr, Kuba və Vyetnam 2016-cı ildə Rusiyadan gediş turizminin ən yüksək artım tempini göstərib. Moskva, Sankt-Peterburq və Soçi turistlərin ən çox üz tutduqları şəhərlər hesab edilib.

# MİLLİ İQTİSADİ POTENSİALIMIZ: GÖZLƏ GÖRÜNMƏYƏN MİLYONLAR

**(Bazar araşdırması)**

Qloballaşma XXI əsrin başlanğıcından etibarən dünya ölkələrini yaxınlaşdıraraq robot və nano texnologiyaları yaratdı, genetika ve seleksiya sahəsində ağlagəlməz inkişafa nail oldu. Nəhəng konsorsiumlar Marsda insan məskənləri qurmaq ideyalarını ortaya atarkən, bəzi ölkələrdə də irqçilik, məzhəbçilik, etnik və milli zəmində müharibələr davam etməkdədir. Beləliklə də, qlobal iqtisadi böhran fonunda dünya iqtisadiyyatında yeni risk faktorları yaranır. Bu geopolitik risk faktorları Azərbaycan iqtisadiyyatına mənfi təsir etmədən yan keçə bilməz. Dünyada neft məhsullarının dəyərdən düşməsi buna sübutdur. Məhz belə zamanlarda ölkə iqtisadiyyatının damarlarına yeni qan vurulmalıdır ki, böhran minimum dərəcədə hiss olunsun.

İxracat makroiqtisadi tarazlığı quraraq ölkələrə valyuta gəlməsini təmin edir. Firmaların ixrac etdiyi məhsullardan əldə etdiyi gəlirin ölkə büdcəsinə də böyük faydası olur. Bir ölkədə ixracat yoxdursa, orada həyat dayanmış deməkdir. İqtisadiyyatı daxilə hesablanmış ölkələri araşdırdığımızda inkişaf templərinin yüksək olmadığını görürük. Monqolustan buna misal ola bilər. Xarici ticarətə önəm verən ölkələrin istehsal və məşğulluq göstəriciləri daha yüksəkdir. Dünya iqtisadiyyatındakı ticarət sövdələşmələrində qəbul edilmiş qızıl standartına görə bir ölkənin sərvəti onun sahib olduğu qızıl ehtiyatıdır. İxracat ölkəyə qızıl gətirir. Xaricdə istehsal olunan malların idxalı ölkədən qızılın çıxmasına yol açır. Ölkələr idxalatı minimuma endirərək sahib olduğu qızıl ehtiyatlarını qorumalıdır. Ölkəyə valyuta, qızıl və rifah gətirən məhsullardan biri də markalaşmış, milli, bölgəsəl, coğrafi xüsusiyyəti olan maddi sərvətlərdir.

Dünyada elə bir ölkə var ki, sahibi olduğu 193 milli maddi sərvəti sayəsində ildə 6 milyard avroya yaxın gəlir əldə edir. Başqa bir ölkə də var ki, 68 adda məhsulu büdcəsinə hər il 3,4 milyard avroya yaxın pul qazandırır. Barəsində söz açdığımız ölkələr İtaliya və Almaniyadır. Yerli və beynəlxalq bazarlara milli-maddi sərvətlərini çıxaran ölkələr inanılmaz gəlir əldə edirlər. Bu cür misallar çoxdur. Məsələn, Fransa 170 adda məhsuldan hər il 6 milyard avro, İngiltərə sadəcə 33 adda məhsuldan 1 milyard avro, İspaniya 128 məhsuldan hər il 870 milyon avro, Yunanıstan 86 çeşid milli sərvətindən 753 milyon avro əldə edir (2010-cu ilin statistik göstəriciləri).

Bunlar reallaşması mümkün olan biznes layihələridir. İnkişaf etmiş ölkələr bu sahəyə çox diqqət ayırırlar. Buna ən gözəl nümunə Fransa və İtaliyadır. Hər iki ölkədə bu işlər birlik və kooperativlər tərəfindən həyata keçirilir.

İtaliyada Melinda sortu alma yetişdiriciləri və Fransada Rokfor pendiri istehsalçıları da elə bu məqsədlə birlik oldular. Bu məhsulları birlikdən kənarda yetişdirənlər avtomatik olaraq bazardan çıxarılırlar. Fransanın maddi sərvət siyahısında daha çox şərab, likör, pendir növləri, lavanda balı, bal konyakı və tərxun var. Fransa təkcə patentli pendir satışından ildə 1,5 milyard avro gəlir əldə edir. Bu rəqəm geridə qalmış ölkələrin illik büdcəsi qədərdir. Coğrafi xüsusiyyəti olan bu tip məhsulların bazarı dünya üzrə 200 milyard dolların üzərindədir. Sadəcə Avropa İttifaqı (Aİ) ölkələrinin payı 55 milyard avro təşkil edir. Bu məhsulların 20%-i Amerika, Sinqapur, Çin, Yaponiya, Kanada, Honkonqa ixrac edilir ki, onların da ümumi dəyəri təqribən 12 milyard avrodur. Aİ patentləşdirdiyi bu cür məhsulların adının, əmtəə nişanının, istehsalının qorunmasına ciddi önəm verir (cədvəl 1).

Aİ-də 1752 şərab, 1315 qida məhsulu, 247 alkoqollu içki də daxil olmaqla 3319 adda coğrafi xüsusiyyətli markalı məhsul var. Ən çox məhsul patenti almış ölkələr siyahısında İtaliya, Fransa, İspaniya, Yunanıstan, Portuqaliya və Almaniya yer alır. Qeyd edim ki, Aİ-yə daxil olmayan ölkələr də ittifaqdan patent ala bilirlər. Bu ölkələrin sayı 27-dir. Siyahıda 10 Çin, 2 Türkiyə mənşəli məhsul da var. Bunlar Antep paxlavası və Aydın ənciridir.

Dünyaya kənd təsərrüfatı ixrac edən ölkələrdən biri də Braziliyadır. Bu ölkə qəhvə, şəkər, portağal suyu konsentratı istehsalı və ixracatında dünyada ilk, soya paxlası, tütün, mal və quş əti istehsalında isə ikinci sırada yer alır. Ümumilikdə isə Braziliya 35 adda maddi-milli sərvətə sahibdir. Hindistanda isə bu rəqəm 200-ü keçmişdir. Bu ölkəni təmsil edən milli məhsulların böyük əksəriyyətini ədviyyatlar təşkil edir.

X-XI əsrlərdə Səlcuq dövləti ilə ticari-iqtisadi əlaqələri olan və Cənubi Azərbaycandan üzüm bəkməzi ixrac edən italiyalılar sonradan bu məhsulu qıcqırdaraq Balzamik sirkə əldə etdilər. Xalq arasında doşab kimi də tanınan bəkməz müxtəlif meyvələrdən emal edilir. İtaliyalılar bu məhsulu daha da təkmilləşdirərək sübut etdilər ki, üzüm bəkməzi hələ son məhsul deyildir. Bizim bazarlarda isə bəkməz hələ də 10 əsr əvvəl olduğu kimi satılır. Bu gün təkcə İtaliyanın Moderna əyaləti İngiltərə kraliçası və planetin zənginləri də daxil olmaqla dünya ölkələrinə 12 il palıd çəlləklərdə saxlanaraq tündləşdirilmiş qatı balzamik sirkə ixrac edərək liderliyi özündə saxlayır. Onu da qeyd edək ki, Amerika auksionlarında 25 illik balzamik sirkənin 100 ml-i 400 dollardan satılır.

Qardaş Türkiyənin 81 vilayətindəki Ticarət Sənaye Palatalarının qeydiyyatından milli və bölgəsəl nişanlı 191 coğrafi xüsusiyyəti olan məhsul keçib (10.01.2017). Bu siyahıda Ezine pendiri, Bursa ipəyi, Afyonkarahisar mərməri, Kütahya keramikası, Kızılcahamam mineral suyu, İznik çinisi, Kayseri basdırması, Malatya əriyi, Safranbolu zəfəranı, Angora (Ankara) tiftik keçisi, tiftik dovşanı və tiftik pişiyi, Ərzurumun Oltu daşı, Tosya düyüsü, İstanbulun Hacı Bekir lokumu, Qars pendiri, Van gölü kefalı, Urfa və Adana kababları, Çorum ləbləbisi, Amasya alması, Aydın ənciri, Finike portağalı, Ayvalık zeytun yağı, Taşköprü sarımsağı, Tire keçəsi, Antep paxlavası və fıstığı, Tekirdağ rakısı, Dənizli kəklikotusu, Kavaklıdərə şərabları, Çankırı qaya duzu, Trakya kıvırcık qoyunu da var. 300-ə yaxın türk emblemli məhsul isə patent alma növbəsindədir. Qeyd etmək lazımdır ki, bu cür maddi sərvətlər yalnız yeyinti məhsullarından ibarət deyildir. Bura həmçinin qiymətli daşlar, faydalı qazıntılar, heyvan cinsləri, xalça və nadir parça növləri də daxildir.

**Aİ-də qruplara görə coğrafi xüsusiyyəti məhsulların ixracat rəqəmləri (2010-cu ilin statistik göstəriciləri)**

**Cədvəl 1**

| **Coğrafi xüsusiyyətli məhsul qrupu** | **Coğrafi xüsusiyyətli** məhsul sayı | İxracat payı ən çox olan **Aİ ölkələri** |
|---|---|---|
| **Təzə ət** | 110 | Fransa (530 milyon avro)<br>İngiltərə (490 milyon avro)<br>İspaniya (162 milyon avro)<br>Portuqaliya ( 11 milyon avro) |
| Ət məhsulları | 98 | İtaliya (1,8 milyard avro)<br>Almaniya (705 milyon avro)<br>Fransa (356 milyon avro)<br>İspaniya (165 milyon avro) |
| **Pendirlər** | 176 | İtaliya (3,4 milyard avro)<br>Fransa (1,5 milyard avro)<br>İspaniya (186 milyon avro)<br>Hollandiya (90 milyon avro)<br>Avstriya (89 milyon avro) |
| **Duru və qatı yağlar** | 106 | Fransa (129 milyon avro)<br>İtaliya (72,5 milyon avro)<br>İspaniya (72,4 milyon avro)<br>Yunanıstan (42 milyon avro) |
| **Meyvə, tərəvəz və digər ərzaq məhsulları** | 215 | İtaliya (320 milyon avro)<br>Fransa (190 milyon avro)<br>İspaniya (158 milyon avro)<br>Almaniya (36 milyon avro)<br>Yunanıstan (31 milyon avro) |

İnsan oğlunun inam və bacarığı üst-üstə gəldiyində müsbət nəticə əldə edir. Maraqlı bir faktı bölüşmək istəyirəm. Hələ 17 il əvvəl Türkiyə ərazisindəki çaylarda və dənizlərdə nərə balığı yaşamırdı. 2000-ci illərin əvvəllərində Adana vilayətinin Ağzıkaraca kəndində təşəbbüskarlar tərəfindən nərə balığı artırma təsisi quruldu. Onu da qeyd edim ki, bu fermer təsərrüfatı ilə Aralıq dənizi arasında olan məsafə 124 km-dir. Balıqlar dənizdə ya da deltada deyil yalnız şirin suda yetişdirilirdi. 100.000 nərə balığı körpəsi alan təsərrüfat 2013-cü ildə ilk balıq kürüsünü əldə etdi. Həm də balıqlar kəsilmədən. Bu gün həmin kürülər «Royal» markası altında yerli və Avropa bazarlarında 1 kiloqramı 2500 avroya satılır. Bu markanı Türkiyənin coğrafi xüsusiyyətli məhsulu kimi patentləşdirən şirkət rəhbərliyi Parisdə kürü mağazası açmağı düşünür.

Avropada da olduğu kimi Türkiyədə də bu işlər birlik və kooperativlər tərəfindən həyata keçirilir və məhz bu səbəbdən coğrafi xüsusiyyətli məhsullar, digərlərindən fərqli olaraq daha yüksək qiymətlə satılır. Məsələn, Antalyada vur-tut cəmi 150 min ton məşhur Finike sortu portağal yetişdirilir. Bu portağal sortu xalq arasında o qədər populyar olub ki, 2015-ci ilin rəsmi rəqəmlərinə görə, İstanbulda guya 650.000 ton Finike portağalı satılıb. Təəssüf ki, hər ölkədə fürsətdən istifadə etmək istəyən "işbazlar" vardır.

İqtisadi cəhətdən Azərbaycandan qat-qat geridə olan Gürcüstan şərabları, mineral suları və digər məhsulları ilə çoxdan dünya bazarlarına çıxa bilib. Bir neçə qurudulmuş tərəvəz və bitki qarışığı olan «Xmeli-suneli»ni bugün Avropanın bir çox şəhərlərində almaq mümkündür. Məşhur Borjomi şirkəti ötən əsrin 90-cı illərinin əvvəllərində VDP Hollandiya Fondu tərəfindən IDS Borjomi Beverages şirkətinə satıldı. Şirkət böyük sərmayə cəlb etmək məqsədilə 1997-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankı və ING-Barings Hollandiya Fondu kimi güclü investorlar cəlb edə bildi. Bu səbəbdən də Borjomi Avropa bazarına rahat girə bildi. 2007 ci ildə şirkət bazara yeni brendini - Likani suyunu çıxartdı. Professional markalaşma siyasəti nəticəsində bu brend 4 il ərzində Gürcüstanın mineral su bazarının 30%-nə sahib oldu. 2013-cü ildə «Borjomi»ni Rusiyanın Alfa Qrupu satın aldı.

Ortaya belə bir sual çıxa bilər: "Azərbaycanda bu iş hansı səviyyədədir?". Ucuzlaşan xam neft qiymətləri fonunda turizm bazarı və ixracat, xüsusilə də bu cür markalaşdırılmış məhsulların satışı, həm ölkə büdcəsinə gəlir, həm də kiçik və orta biznesin inkişafına təkan verə bilər. Gözümüzün önünə Şəki paxlavası və ipəyi, gil piti qabları, Naxçıvan lavaşı və qaya duzu, Abşeron ənciri və üzümləri, Bilgəh zəfəranı, Gəncə tərxunu və dovğası, narşərablar, Şirvan, Qarabağ, Qazax qrupu əl xalçaları, bəkməzlər, Qızıləhmədi alması, qoz mürəbbəsi, mineral sular, müalicəvi Naftalan nefti, qoyun yunundan yorğanlar, qızılgül ləçəyindən yastıqlar, gül suyu, gül yağı, dağ kəklikotusu, Bilgəh zəfəranı, camış südündən alınmış məmulatlar, Kür çayı üçün endemik nərə balığı növü və kürüsü, kəlağayı, Xari-bülbül orxideya növü və s. gələ bilər. Sual yarana bilər: Əgər qeyd olunan bu məhsullara xarici ölkələrdə, doğrudan da, tələb varsa niyə alıcısı yoxdur? Əvvəla bazarda tanınmış bir məhsulunuzu markalaşdırmaq istəyirsinizsə bunu mənfi və müsbət tərəfləri var. Alıcılar bu məhsulu sevirsə, işiniz daha rahat olacaq. Mənfi tərəfi odur ki, keyfiyyətsizlik səbəbilə məhsula tələb yoxdursa, bu məhsulu əvvəlcə yenidən təkmilləşdirmək, sonra markalaşdırmaq lazımdır. Səbəbi? Markalaşma satışı asanlaşdırır və artırır. Markalar alıcıların inandıqları və güvəndikləri vədlərdir. Markalar qazancın yolunu açar, alıcının seçimini sürətləndirir və işinizin uzunömürlü olma şansını artırar. Bu gün Almaniya, Fransa, İtaliya, Hollandiya və s. ölkələrdə elə məhsul görə bilərsiniz ki, onun 500 yaşı var. Bu barədə etiket üzərində də qeydlər olur. Bu uzunömürlü ailə bizneslərinin əsrlərlə yaşamasının tək səbəbi alıcıların bu məhsullardan imtina etməməsidir. Bu da ancaq keyfiyyətin qorunması sayəsində ola bilər. Üzərində marka yazılan hər məhsul marka demək deyildir.

Azərbaycanın kənd və şəhər rayonlarında sirkəyə və duza qoyulmuş meyvə turşuları satılır. Əslində bu turşu çeşidləri gəlirliliyi baxımından markalaşma üçün ən ideal məhsullardır, çünki bu cür delikateslər çox az ölkədə var. Təəssüf ki, Bakı şəhərində satılan bu cür meyvə turşularının mənşəyi bilinmir, qabların üzərində etiketi yoxdur ki, bu da həm ölkə vətəndaşları, həm də turistlər tərəfindən birmənalı qarşılanmır. Bizim Hövsan sortu kimi tanıdığımız soğan sortu olan "Allium ascalonicum"un 2000 il əvvəl Misir və Yunanıstanda becərildiyi məlumdur. Sonralar soğan Avropaya, ispaniyalılar tərəfindən isə Amerikaya yayıldı. Fransada "Cuisse de Poulet du Poitou", yəni "toyuq budu" kimi tanınan bu uzunsov sort artıq fransız markası kimi bilinir və xalq arasında çox populyardır.

Xalq arasında sevilən və yalnız kənd rayonlarının bazarlarında satılan milli-bölgəsəl məhsulların becərilməsinin və istehsalının artırılması vaxtı gəlib çatmamışdırmı? Bəlkə də çox sayda milli-bölgəsəl məhsul hətta respublika səviyyəsində tanınmamışdır. Təxmini hesablamalarımıza görə, Azərbaycan sahibkarları təkcə bu milli-bölgəsəl məhsulların satışından, dövlət büdcəsi isə vergilərdən ildə orta hesabla 500 milyon avro gəlir əldə edə bilər.

**(Bilgi və rəqəmlər TÜİK-dən (Türk İstatistik Kurumu) götürülmüşdür. Yəni, Avropa-Türkiyə idxalat-ixracat qarşılaşdırmalarını, Aİ-nin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarını da bizə TÜİK verir. Azərbaycanla bağlı rəqəmi finans bölməmiz hesablayır. Digər məlumatlar Türkiyə Ticarət-Sənaye Palataları Birliyi, Türkiyə Patent İnstitutu, Türkiyə Gömrük və Ticarət Nazirliyi, Türk Sənayeçiləri və İş Adamları Dərnəyi (TÜSİAD), eləcə də Ərzaq, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyindən alınmışdır. Təbii ki, 500 milyon avro təxmini hesablanmış ortalama rəqəmdir və daha da yüksək, ya da aşağı ola bilər. Ancaq bu rəqəm hesablanarkən bir sıra ölkələrin statistik hesabatları və bazar qiymətləri nəzərə alınır).**

Bunun üçün ilk növbədə coğrafi xüsusiyyətli məhsullar haqqında qanun qəbul edilməsi, qeyri-neft sektorunun və azad təşəbbüskarlığın təşviqi, nəzarət funksiyalı müvafiq birlik və kooperativlərin yaradılması, yuxarıda qeyd olunan məhsulların markalaşdırılması vacib şərtlərdəndir. Artıq qeyd etdiyim kimi, coğrafi xüsusiyyətli məhsullar, digərlərindən fərqli olaraq daha yüksək qiymətlə satılır. Azərbaycan iqtisadi-ticari sahədə əməkdaşlıq etdiyi ölkələrdə "Azərbaycanın coğrafi xüsusiyyətli məhsulları"nın satışı təşkil oluna bilər. Tam qətiyyətlə söyləyə bilərəm ki, bu gün əla keyfiyyətli Şəki paxlavası, Avropa bazarında Antep paxlavasına rəqib ola bilər. Lakin məhsulların dünya və Avropa standartlarına cavab verməsi üçün təkrar təkmilləşdirilməsi lazımdır. Avropa ölkələri maddi sərvətlərinin qiymətini bilərək bu bazarı çoxdan yaratmışlar. Bu sahə ölkə iqtisadiyyatına gəlir gətirməklə bərabər, həm ətraf mühiti qoruyur, həm də mədəni irsin gələcək nəsillərə mirasıdır.

**Etibar RƏHİMOV,**
**AR-GE İNOVASYON LTD**
**TARIM, YATIRIM,**
**MARKALAŞMA UZMANI**
**(İSTANBUL)**

# Azercell Təhsil Nazirliyi ilə anlaşma memorandumu imzaladı











Azərbaycanda gənclərin peşəkar və fərdi inkişafına daim dəstək olan Azercell Telekom MMC bu qəbildən növbəti təşəbbüsə qoşuldu. Belə ki, Təhsil Nazirliyində Azercell Telekom MMC-nin də rəsmi tərəfdaşı olduğu SABAH Karyera Akademiyasının təqdimatı baş tutdu.

SABAH Karyera Akademiyası proqramı ilk SABAH məzunlarının gələcək peşəkar inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə tələbələrə dəstək verilməsi məqsədilə hazırlanıb. Proqram çərçivəsində Təhsil Nazirliyi və Azercell istedadlı tələbələrin nəzəri və praktiki baxımdan hərtərəfli hazırlığı məqsədilə birgə fəaliyyət göstərirlər.

Təqdimat mərasimində çıxış edən Azercell Telekom MMC prezidenti Vahid Mürsəliyev bildirib ki, təmsil etdiyi şirkət Azərbaycanın təhsil sistemindəki yenilənməni, inkişaf tendensiyalarını davamlı olaraq izləyir: "Lakin biz müşahidəçi olmaqla kifayətlənməyib, öz yardımımızı, dəstəyimizi də əsirgəmirik. Azercell hər zaman təhsilə dəstək fəaliyyətini sosial məsuliyyət strategiyasının əsas sahəsi olaraq görüb. İstər paytaxtda, istərsə də regionlarda Azərbaycanın bir çox qabaqcıl universitetləri, məktəbləri ilə əməkdaşlıq edən şirkətimiz yüzlərlə tələbəyə iş imkanı yaradıb. Azercell 20 ildir ki, Azərbaycanın ən layiqli işəgötürəni siyahısında ön sıralardadır".

V.Mürsəliyev qeyd edib ki, Azercell-in SABAH qrupu ilə əməkdaşlığa qərar verməsi təsadüfi deyil. Çünki bu layihə Azərbaycan təhsilinə yeni baxış, yeni yanaşma, yeni ruh gətirib: «Biz bunu dəyərləndirməyə bilməzdik və bu gün memorandum imzalamaqla bu əməkdaşlığı daha çox sistemləşdiririk».

Qeyd olunub ki, 17-20 fevral tarixlərində Qubada SABAH Karyera Qış Məktəbi təşkil olunacaq. Bu tədbirdə də Azercell Telekom MMC əməkdaşları tələbələrə gələcək karyeralarını qurmaqda faydalı ola biləcək sessiyalar təqdim edəcəklər.

# Zvooq xidməti əhvalınızın müsiqisi olacaq

Azercell Telekom MMC öz abunəçiləri üçün daha bir xidməti təkmilləşdirərək, onların ixtiyarına verib. Belə ki, artıq Azercell abunəçilərinə Zvooq xidmətinin premium versiyası vasitəsilə istənilən musiqini dinləmək və yeni musiqi parçaları əlavə edərək öz play listini yaratmaq imkanı verir. Xidmətə qoşulmaq üçün Google Play və ya AppStore-dan mobil tətbiqi yükləmək, qeydiyyat üçün sadəcə tətbiqdə mobil nömrəni daxil edib, əvəzində SMS vasitəsilə gələn unikal kodu təkrarən mobil tətbiq üzərindən əlavə etmək lazımdır.

Qeyd edək ki, xidmət 10.02.2017-ci il tarixindən etibarən bütün abunəçilərin istifadəsinə təqdim olunub. Həmin tarixdən xidmətə qoşulanlar ilk aylıq (30 günlük) istifadə müddəti ərzində Zvooq xidmətindən ödənişsiz yararlana bilirlər. Bu (30 günlük) müddət bitdikdən sonra, həmçinin 10.03.2017-ci il tarixindən etibarən xidmətə qoşulanlar, 4,5 AZN xidmət haqqı ödəməklə xidmətdən 30 günlük istifadə edəcəklər. Aylıq abunə haqqı müqabilində xidmətə qoşulma hər ay avtomatik yenilənir.

Zvooq xidməti abunəçinin istifadə etdiyi internet paketin trafikindən hesablanacaq.

# WhatsApp təhlükəsizliyi gücləndirir

İlk olaraq ötən il tətbiqin Beta versiyasında qarşımıza çıxan ikimərhələli autentifikasiya funksiyası artıq 1 milyarddan çox WhatsApp istifadəçisinə təqdim edilib. Bu yenilik həm Android, həm də iOS üçün istifadəyə verilib.

Belə ki, tətbiqin "Hesab" bölməsində istifadəsi mümkün olan bu funksiyanı aktivləşdirmək üçün istifadəçidən 6 rəqəmli şifrə istənilir.

İki addımlı doğrulama xüsusiyyət isə yeni bir telefona keçid müddətində və ya tətbiqi telefonunuzdan silib təkrar yüklədiyinizdə ortaya çıxır.

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN MEDİASI ARASINDA ƏLAQƏLƏR DAHA DA GENİŞLƏNDİRİLMƏLİDİR



*Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral Fondun qonağı olub*

Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli fondun ofisində Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral və səfirliyin mətbuat müşaviri Həmid Karadenizlə görüşüb.

Vüqar Səfərli qonaqları səmimi salamlayaraq, Azərbaycanın ictimai-siyasi həyatına yaxından bələd olan səfir Erkan Özoralın diplomatik səyləri ilə ikitərəfli münasibətlərin daha dinamik inkişaf edəcəyinə əminliyini vurğulayıb. Fondun fəaliyyəti barədə ətraflı məlumat verən Vüqar Səfərli Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dövlətin mediaya yüksək qayğısının nəticəsi kimi yaradıldığını bildirib. İcraçı direktor qeyd edib ki, Fondun əsas məqsədi fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı genişləndirmək, jurnalistlərin peşəkarlıq səviyyəsini artırmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələri maliyyələşdirməkdir.

İcraçı direktor Fondun fəaliyyət göstərdiyi 8 ilə yaxın müddətdə qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı çoxsaylı layihələr barədə məlumat verib. Vüqar Səfərli Fondun hazırda 33 qəzetə maliyyə dəstəyi göstərdiyini, habelə jurnalistlər üçün müntəzəm olaraq fərdi jurnalist yazıları müsabiqələri təşkil etdiyini bildirib. İcraçı direktor mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də diplomatik korpuslarla əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə reallaşdırılan layihələr barədə məlumat verən Vüqar Səfərli Fondun Türkiyə və digər türkdilli dövlətlərin media qurumları arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd edib. Son illərdə bu istiqamətdə müəyyən layihələrin reallaşdırıldığını, Türkdilli Ölkələrin Media Platformasının yaradıldığını diqqətə çatdıran Vüqar Səfərli Turkiyə ilə Azərbaycan mediası arasında daha sıx və işgüzar əlaqələrin qurulmasının vacibliyini qeyd edib. Fondun icraçı direktoru səfirlə görüş zamanı media sahəsində daha səmərəli əlaqələrin qurulması məqsədilə yeni əməkdaşlıq platformasının yaradılmasının və qarşılıqlı faydalı səfərlərin zəruriliyini də qeyd edib.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral müxtəlif sahələrdə dinamik inkişaf edən Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında hər iki ölkənin mediasının müstəsna rolunu qeyd edib. Səfir Fondun icraçı direktorunun iki ölkənin KİV-i arasında əməkdaşlığın daha da genişləndirilməsi təşəbbüsünü dəstəkləyərək, bu məsələni xüsusi diqqət mərkəzində saxlayacağını bildirib. Görüşdə qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

# UNEC xarici universitetlərin təcrübəsini öyrənməyə davam edir



UNEC-də müəllimlərin tədris bacarıqlarının təmilləşdirilməsi və dünyanın qabaqcıl universitetlərinin təhsil təcrübəsinin öyrənilməsi davam edir.

UNEC-in Quba Tədris, İdman və İstirahət Kompleksində Qış məktəbinin açılışı olub. Tədbir iştirakçılarına UNEC-dəki yeniliklər haqda məlumat verən departament direktoru Rasim Şərifov tədrisin keyfiyyətinin yüksəldilməsi, professor-müəllim heyətinin elmi potensialının, tədris bacarıqlarının artırılması, bu sahədə xarici təcrübənin öyrənilməsinin universitetin prioritetləri sırasında olduğunu bildirib. O, bu məqsədlə Quba Tədris, İdman və İstirahət Kompleksində bundan əvvəl 132 müəllimin iştirakı ilə keçirilən təlimlərin, prosesdə xarici professorların iştirakının əhəmiyyəti, müəllimlərin nüfuzlu universitetlərə ezam olunmasının mahiyyətindən danışıb. "Qış məktəbinin təşkili UNEC-in professor-müəllim heyətinin müasir tədris bacarıqlarının təkmilləşdirilməsinə yönəlib", - deyən mərkəz direktoru Raqif Qasımov 120 müəllimin qatıldığı təlimlər haqqında məlumat verib. O, qeyd edib ki, məktəbdə müasir kurikulum yaradılması, seminar və mühazirə dərslərinin strukturunun idarəedilməsi vasitələrinin tətbiqi həyata keçiriləcək və müasir İKT formaları olan "ePortfolios" və "Snagit"in istifadəsi, müəllimlərin liderlik və menecment bacarıqlarının artırılması, biliyin qiymətləndiirlməsi metodlarının təkmilləşdirilməsi mövzularında təlimlər keçiriləcək. UNEC-də reallaşdırılan layihələrin, eyni zamanda, Qış məktəbini dəstəkləyən Paris-Sorbon Abu-Dabi Universiteti rektorunun müşaviri İmran Muxtarov, professorlar - Rida Ballaik Hourani və Litz David Riçard müəllimlərin müasir tədris bacarıqlarının təkmilləşdirilməsi, onların liderlik və menecment bacarıqlarının, auditoriyanın interaktiv metodlarla idarəedilməsi baxımından keçirilən təlimlərin faydalı olacağını bildiriblər. Açılışdan sonra ilk təlimlərə start verilib.

UNEC-in qış məktəbi çərçivəsində dekan və kafedra müəllimlərindən ibarət nümayəndə heyəti Türkiyənin Sakarya, Süleyman Dəmirəl və Uludağ universitetlərinə də ezam olunublar. Məqsəd müəllimlərin elmi potensialının artırılması, xarici universitetlərin təcrübəsinin öyrənilməsidir.

# SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

min manatla

| A K T İ V L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Torpaq, tikili və avadanlıqlar** | | 58,00 | 43,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | | |
| **Qeyri-maddi aktivlər** | | | |
| **Təxirə salınmış vergi aktivləri** | | 19,00 | 12,00 |
| **Uzunmüddətli debitor borcları** | | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair aktivlər** | | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | 77,00 | 55,00 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| **Ehtiyatlar** | | | |
| **Debitor borcları:** | | 344,00 | 390,00 |
| birbaşa sığorta üzrə | | | |
| **təkrarsığorta əməliyyatları üzrə :** | | 264,00 | 376,00 |
| - təkrarsığortaçı üzrə | | 264,00 | 376,00 |
| - təkrarsığortalı üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| büdcə üzrə | | 80,00 | 14,00 |
| iddia tələbləri üzrə | | | |
| işçi heyəti üzrə | | | |
| sığortalılara verilən borclar üzrə | | | |
| sair debitorlar | | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | | 2 151,00 | 2 760,00 |
| kassa | | | |
| hesablaşma hesabı | | 2 151,00 | 2 760,00 |
| valyuta hesabı | | | |
| depozit hesablar | | | |
| sair pul vəsaitləri | | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | | |
| dövlət qiymətli kağızları | | | |
| qeyri-dövlət qiymətli kağızları | | | |
| sair maliyyə aktivləri | | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | | |
| həyat sığortası sahəsi üzrə | | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | | |
| **Sair qısamüddətli aktivlər:** | | 37,00 | 44,00 |
| gələcək hesabat dövrlərinin xərcləri | | | |
| verilmiş avanslar | | 37,00 | 44,00 |
| təhtəl hesablar | | 0,00 | |
| **Sair aktivlər** | | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | | 2 532,00 | 3 194,00 |
| **CƏMİ AKTİVLƏR** | | 2 609,00 | 3 249,00 |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| **I . KAPİTAL** | | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | | 10,00 | 10,00 |
| **Emissiya gəliri** | | | |
| **Geri alınmış kapital (səhmlər)** | | | |
| **Kapital ehtiyatları:** | | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | | |
| digər kapital ehtiyatları | | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | 1 127,00 | 917,00 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | -65,00 | 210,00 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | 0 | 0 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 1 192,00 | 1 127,00 |
| Elan edilmiş dividendlər | | | -420,00 |
| ***Cəmi kapital*** | | 1 137,00 | 927,00 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Sığorta ehtiyatları:** | | | |
| Həyat sığortası sahəsi üzrə : | | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | 18,00 | |
| **Kreditor borcları :** | | | |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | | |
| sosial sığorta və təminat üzrə | | | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | | |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | 1 368,00 | 2 270,00 |
| təkrarsığortaçı üzrə | | 1 368,00 | 2 270,00 |
| təkrarsığortalı üzrə | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair öhdəliklər** | | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | | 1 386,00 | 2 270,00 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | | |
| **Kreditor borcları:** | | 86,00 | 52,00 |
| əməyin ödənilməsi üzrə | | | |
| büdcə üzrə | | 86,00 | 52,00 |
| sosial sığorta və təminat üzrə | | | |
| digər məcburi ödənişlər üzrə | | | |
| asılı təşkilatlar üzrə | | | |
| sair kreditorlar | | | |
| **Sair qısamüddətli öhdəliklər:** | | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | | | |
| alınmış avanslar | | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| **Sair öhdəliklər** | | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | | 86,00 | 52,00 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | | 1 472,00 | 2 322,00 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | 2 609,00 | 3 249,00 |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | 0,00 | 0,00 |

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 1 132,00 |
| **CƏMİ GƏLİRLƏR** | **1 132,00** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 851,00 |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | **851,00** |
| **Maliyyə mənfəəti (zərəri)** | 281,00 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 281,00 |
| **Mənfəət vergisi** | 71,00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 210,00 |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

Rəhbər: Əsgərova Tamilla

Baş mühasib: Muradov Murad

## MÜSTƏQİL AUDİTOR RƏYİ

**"Marş Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinin və Payçılarının nəzərinə:**

Biz "Marş Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Şirkət") 31 dekabr 2015-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə Şirkətin məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu qaydalarının xülasəsi və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun məsuliyyəti:** Bizim vəzifəmiz apardağımız audit əsasında maliyyə hesabatları haqqında rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirdik. Həmin standartlar tələb edir ki, biz etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks etdirilmiş məlumatlarda əhəmiyyətli səhvlərin olmadığına kifayət qədər əmin olaq. Audit zamanı maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması ilə bağlı prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsindən, o cümlədən maliyyə hesabatlarında səhv və ya saxtakarlıqla bağlı mühüm təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə riskin qiymətləndirilməsini həyata keçirərkən auditor şəraitə uyğun audit prosedurlarının planlaşdırılması məqsədilə şirkətin daxili nəzarət sistemini həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, şirkət tərəfindən maliyyə hesabatlarının düzgün hazırlanması və təqdim edilməsi ilə bağlı nəzərdən keçirir. Auditə, həmçinin rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat təxminlərinin əsaslı olduğunun qiymətləndirilməsi, habelə maliyyə hesabatlarının ümumi təqdimatının qiymətləndirilməsi daxildir. Hesab edirik ki, apardığımız audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

**Rəy:** Fikrimizcə, bu maliyyə hesabatları Şirkətin 31 dekabr 2015-ci il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixə bitən il üzrə maliyyə nəticiləri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**30 avqust 2016-cı il**

**Bakı, Azərbaycan Respublikası**

# "Public relations" tədbirləri



(əvvəli ötən sayımızda)

İctimai rəy ictimai hadisələrə, müxtəlif qrupların, təşkilatların, ayrı-ayrı "Public relations" tədbirlərinin çoxcəhətliyini dörd əsas qrupda təsnifləşdirmək olar.

1. Prezentasiyalar, yəni təqdimatlar, mətbuat konfransları, simpoziumlar – bunlar reklamverici tərəfindən xüsusi təşkilatlanan informasiya xarakterli reklam tədbirləridir ki, bunlara əvvəlcədən dəvətnamə biletlərinin göndərilməsi yolu ilə ənənəvi, yeni və potensial işgüzar tərəfdaşlar, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunur. Tədbirin başlanmasından əvvəl və ya onun keçirilməsi gedişində bütün dəvət olunanlara məruzələrin, mətbuat relizlərinin mətnləri, reklam materialları və suvenirlər verilir. Məruzələrlə (çox zaman reklam filmlərinin göstərilməsilə), diskussiyalarla, suallara cavablarla rəsmi hissənin keçirilməsindən sonra bu tədbirlər, bir qayda olaraq, "kokteyl" məclisinin ("furşet" tipli kiçik banketin) keçirilməsi ilə başa çatır.

2. İctimai faydalı tədbirlərin maliyyələşdirilməsi. O, kütləvi informasiya vasitələrində hər hansı bir ictimai-siyasi və ya xeyriyyəçilik tədbirləri faktının geniş işıqlandırılması ilə bu tədbirlərin təşkili və keçirilməsi üçün yaradılan məqsədli, təmənnasız pul ödənişidir.

3. Sponsorluq. O, bir qayda olaraq, hər hansı bir ictimai-siyasi və ya kütləvi-mədəni tədbirləri təşkil edənlərlə müqavilə əsasında müəyyən reklam xidmətlərinin alınması hüququ ilə tədbirlərin maliyyələşməsində pay iştirakıdır.

4. Mətbuatda və digər kütləvi informasiya vasitələrində nüfuzlu yönümdə redaksiya materiallarının dərc edilməsi – ümumdövlət və ümumdünya problemlərinə reklamvericinin münasibətin ictimai təbliğidir (ümumbəşəri dəyərlər mövqeyindən cəmiyyət üçün müəssisə və təşkilatın rəhbərlərinin fəaliyyətinin əhəmiyyətini işıqlandırmaq məqsədilə kütləvi informasiya vasitələrində onların ictimai çıxışlarının təşkilindən ibarətdir).

Belə materiallarla, həmçinin ekologiya məsələlərinə də toxunula bilər. Bunlara həmin müəssisədə belə problemlərin necə həll edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi, təbii resursların səmərəli xərclənməsi, əməyin mühafizəsi, sosial təminat və s. problemlər aiddir (cədvəl 1).

| 1.Prezentasiyalar, təqdimatlar, mətbuat konfransları, simpoziumlar | 2. İctimai-faydalı tədbirlərin maliyyələşdirilməsi | 3. Sponsorluq | 4.İctimai çıxışlar |
|---|---|---|---|
| 1.Ənənəvi tərəfdaşların, istifadəçilərin, KİV nümayəndələrinin və ictimaiyyətin qabaqcadan məlumatlandırılması (dəvət edilməsi).<br>1.2.İştirakçılara (tədbir başlamazdan əvvəl) tezislərin, xəbərlərin, məruzələrin, mətbuat relizlərinin, reklam materiallarının, suvenirlərin verilməsi.<br>1.3.Videoçarxlar göstərilməsi, diskussiyaların təşkili, firma haqqında söhbətlər.<br>1.4. Qeyri-rəsmi hissənin təşkili: kokteyllər, furşetlər, "kuluarlarda" qeyri-rəsmi təmaslar, kiçik banketlər, axşam qonaqlığı.<br>1.5. İştirakçılara nümunələrin, slaydların, albomların verilməsi ilə "açıq qapı" gününün keçirilməsi. | 2.1. KİV-də geniş işıqlandırılmaqla ictimai, siyasi və ya xeyriyyəçilik tədbirlərinin keçirilməsi üçün təmənnasız pul ödənişi.<br>2.2.Bayram tədbirlərinin, idman yarışlarının, bədii sərgilərin, kütləvi-mədəni tədbirlərin maliyyələşdirilməsi. | 3.1. Müəyyən üstünlüklərin və reklam xidmətlərinin (reklam lövhələrinin yerləşməsi, efir vaxtından istifadə edilməsi və s.) əldə edilməsi hüquqi ilə hər hansı bir ictimai-siyasi, kütləvi-mədəni, sağlamlıq və digər tədbirlərin işgüzar maliyyələşməsi, firma rəmzinin populyarlaşması. | 4.1.Radio və televiziyada çıxışetmə və ya cəmiyyətin xeyrinə yönəldilən "xeyirxah işlər" və niyyətlər haqqında söhbətlərə və ümumdövlət və ümumxalq problemlərinə firmanın münasibətini işıqlandırmaqla KİV-də nüfuzlu yönümdə materialların dərc edilməsi.<br>4.2. Firma haqqında yaxşı rəylərlə və onun rəhbərliyinə edilən təşəkkürlərlə bu firmanın nüfuzlu müştərilərinin mətbuatda çıxışının təşkili.<br>4.3. Firmanın fəaliyyəti və onun "xeyirxah işləri" və niyyətləri, ənənələri, inkişaf, perspektivləri haqqında qeyri-kommersiya xarakterli məqalələrin dərc edilməsi. |

PR tədbirlərinin hərəkət sxeminə aiddir:
- diqqət cəlb etmək;
- maraq doğurmaq;
- gərginlik və etimadsızlığı çıxarmaq;
- arzuolunan hərəkətə sövq etmək.

Yeni əmtəə ilə bazara çıxmağa hazırlaşan müəssisə (firma), sahibkarlıq subyekti üçün PR uğurun hazırlanmasında həlledici rola malikdir. Belə ki, ilkin olaraq yeni subyekt və onun məhsulu haqqında cəmiyyət heç nə bilmir, deməli, xarici mühitdə yeni müəssisənin müəyyən nüfuzu yoxdur. PR həm müəssisəyə, həm də onun məhsuluna münasibətdə xarici mühitdə tam informasiya qeyri-müəyyənliyini aradan qaldırmalı, cəmiyyətdə onun etimadını və etibarını təmin etməlidir. PR-ın köməyilə ilkin alışı edən şəxsdə (fiziki və ya hüquqi) müsbət emosiya, onların seçiminə əminlik yaratmaq lazımdır. Bütün bunlar oxucuların və dinləyicilərin davranışına lazımi təsir göstərir və məqsədli auditoriyanın müsbət psixoloji qavramasına kömək edir. Təşkilatda kommunikasiya vəzifələrinin uğurlu həlli üçün PR xidməti mövcud ola bilər (sxem 1).




**Sxem 1. PR xidməti**

Analitik-proqnostik qrup PR menecerini daxili və xarici mühitin informasiya sahələrində istiqamətləndirməyə, təşkilatın kommunikasiya məqsədlərini və strateji vəzifələrini müəyyən etməyə, əməliyyatları planlaşdırmağa, kommunikasiya problemlərini və şəraiti qabaqcadan görməyə və proqnozlaşdırmağa kömək edərək, köməkçi qrup kimi çıxış edir. Bunun üçün ilkin informasiya mənbələrindən (müstəqil aparılan sosioloji tədqiqatlar, analitiklər tərəfindən emal edilməmiş sənədlər, xüsusi müşahidələrin nəticələri), eləcə də ikinci dərəcəli informasiya mənbələrindən (sosialoji tədqiqatların materialları, statistik göstəricilər, hesabatlar, proqramlar) istifadə olunur.

**(davamı gələn sayımızda)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "Mən PAŞA Bankın təqaüdçüsüyəm" layihəsi təqdim olundu

PAŞA Bank və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) birgə təşkilatçılığı ilə "Mən PAŞA Bankın təqaüdçüsüyəm" adlı layihənin təqdimetmə mərasimi keçirilib.

Bundan öncə - 2012, 2013 və 2014-cü illərdə keçirilən layihə bu il artıq 4-cü dəfədir ki, keçirilir. Öncəki layihələrdə seçilən 13 tələbə 1 il müddətində ayda 100 manat təqaüdə layiq görülürdü. Bu dəfə isə bu say artırılıb - 20 nəfər olub.

Layihə çərçivəsində keçirilən müsabiqənin qalibi olan 20 tələbəyə 1 il müddətinə hər ay 100 AZN məbləğində təqaüd verilir. Layihədə yalnız ali təhsil müəssisələrinin əyani şöbələrində, iqtisadiyyat və maliyyə ixtisasları üzrə təhsil alan III və IV kurs bakalavr və I kurs magistr tələbələri iştirak etmə şansı əldə ediblər.

Layihədə iştirak üçün tələbələr birinci mərhələdə əvvəlcədən verilmiş mövzulara uyğun ingilis dilində öz araşdırmalarını təqdim edir, araşdırmaları fərqlənmiş tələbələr ikinci seçim mərhələsində - müsahibə mərhələsində iştirak şansı qazandılar.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, ATGTİ-nin sədri Şahin İsmayılov və PAŞA Bankın Korporativ Kommunikasiyalar departamentinin direktoru Sona Abbasova təqaüd proqramının əhəmiyyətindən danışıb və tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə reallaşdırılan layihə olduğunu vurğulayıblar.

# "Nar" sosial media mükafatına layiq görüldü



"Nar" "İlin ən yaxşı "tweet"-i" nominasiyasında "Bomba"sosial media mükafatına layiq görüldü. Buna səbəb mobil operatorun sosial şəbəkələr üzərindən göstərdiyi aktiv fəaliyyətdir. Müştərilər "Twitter", "Facebook" və digər sosial şəbəkələrdə "Nar"-ın maraqlı paylaşımlarını izləyə, həm də onları maraqlandıran sualları birbaşa yaza bilərlər. Belə ki, "Nar" sosial şəbəkələr üzərindən tam şəkildə müştəri xidməti göstərən ilk və hazırda yeganə mobil operatordur. İnternet istifadəçiləri harada olduqlarından asılı olmayaraq "Nar"-a yaza və üçüncü tərəfə yönləndirmə olmadan birbaşa xidmətlərdən yararlana bilərlər. "Twitter" istifadəçilərinin "Nar"-a yazdıqları sorğular təkcə xidmətlərlə məhdudlaşmır. "Twitter" istifadəçiləri "Nar" ilə bağlı istədikləri mövzuda səhifəyə yazır və cavab ala bilirlər. Nəticədə, 2016-cı ilin göstəricilərinə əsasən, "Nar" izləyicilərinin hər 1000 nəfərə görə aktivliyi orta hesabla 544 nəfər təşkil edib. İzləyici aktivliyinə görə "Nar"-ın "Twitter" səhifəsi ölkədə ən aktiv korporativ səhifədir. Bundan başqa, 2016-cı ildə "Nar"-a sosial şəbəkələr üzərindən müraciətlərin sayı 2015-ci illə müqayisədə 84% artmışdır.

İDEAL DİZAYN
Daimi tərəfdaşınız
KEYFİYYƏTİMİZƏ ÖNƏM VERDİYİNİZ
DAİMİ TƏRƏFDAŞINIZ
- Ofis mebelləri
- Metal mebellər
- Metal seyflər
- Teatral kürsülər
- Məktəb mebelləri
- Yumşaq mebellər
*3434
Tel.: (012) 480 37 55
e-mail: office@idealdizayn.az
www.idealdizayn.az
Ünvan: Bakı şəh., Ə.Rəcəbli küç. 40





**E L A N**

"Qala Həyat" Sığorta Şirkəti ASC-yə məxsus 7s formalı Sığorta haqları üçün mədaxil qəbzlərinin itməsi ilə bağlı bildirir ki, DFM/3 339751, DFM/3 440984, GSY 087192, GSY 087555, DFM/3 440305, GSY 152458, GSY 152654, GSY 152697, GSY 152725, GSY 152652, GSY 152653 nömrəli mədaxil qəbzləri etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova atası
**İSMAYIL SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova atası
**İSMAYIL SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova atası
**İSMAYIL SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150